Xalqın qəzeti!

# Xalq qəzeti

№ 94 (30210) 7 may 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün xəbəri

Bu ilin I rübündə Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına 1 milyard 67 milyon manat vəsait yönəldib.

# “Şahdəniz” layihəsi çərçivəsində hasilat artır



**Azərbaycanı dünyanın potensial qaz ölkəsinə çevirən “Şahdəniz” yatağının ehtiyatlarının işlənməsi uğurla davam etdirilir. Artıq “Şahdəniz”qazı Avropa məkanında özünə daha çox alıcı tapır. XXI əsrin ən böyük eneji marşrutu sayılan Cənub Qaz Dəhlizi ilə Avropaya göndərilən qaz həcmlərinin artırılması isə “Şahdəniz” layihəsi səhmdarlarının səmərəli fəaliyyətindən asılıdır.**

Xatırladaq ki, “Şahdəniz” layihəsinin iştirakçıları BP (operator – 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), SOCAR (14,35 faiz), NİKO (10 faiz) və Cənub Qaz Dəhlizi (6,67 faiz) şirkətləridir. “BP-Azərbaycan” şirkətinin məlumatına görə, 2023-cü ilin birinci rübündə “Şahdəniz” layihəsinin əməliyyat tədbirlərinə 678 milyon dollar, əsaslı məsrəflərinə isə 194 milyon dollar xərclənib. Həmin vəsaitin isə böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan “Şahdəniz-2” layihəsinə sərf edilib.

*(ardı 4-cü səhifədə)*

## Ankara – Bakı qardaşlığının xarakteri heç zaman dəyişməyəcək



Səhifə ⇨ 3

## “Amerika milləti” ideyası: Dünya hegemonluğu və daxili çatlar



Səhifə ⇨ 11

## Qarabağ və Şərqi Zəngəzur turizm məkanına çevriləcək



Səhifə ⇨ 9

## Ermənistan hakimiyyətinin ağızucu “Nemezis” üzrxahlığı



Səhifə ⇨ 3

# Müstəmləkəçi indi də anklavdan danışır

Səhifə ⇨ 4

## Bərdə – Ağdam yolu Qarabağın baş qapısıdır



Səhifə ⇨ 9

## İranda bədxahların Nizamini gözdən salmaq cəhdləri



Səhifə ⇨ 10

## Zəngilan və Laçında 7 su elektrik stansiyası tikilir



Səhifə ⇨ 9

## Ciddədə Sudan danışıqları



Səhifə ⇨ 11

## “Şahnamə” miniatürü 6.1 milyon dollara satılıb



Səhifə ⇨ 10

## Erməni işğalındakı 8 kənd: İrəvan həm “hə” deyir, həm də “yox”



Səhifə ⇨ 3

## Şah İsmayıl dövrünün Azərbaycan intibahı

Səhifə ⇨ 10

## “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 9, maddə 187; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 1028; 2008, № 12, maddə 1057; 2011, № 1, maddə 21; 2018, № 11, maddə 2327; 2022, № 11, maddə 1331) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

**Kollegiyanın üzvləri**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavinləri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının baş idarə rəisləri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin rəisləri.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 6 may 2023-cü il**

## Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abbasov Tariyel Abbasqulu oğlu
Axundova Nigar Vəli qızı
Aqalliyay Pellumb Mustafa oğlu
Əliyev Zamiq Balarza oğlu
Əsədov Əsəd Fərux oğlu
Həsənov Ənvər Cəfər oğlu
Həsənov Vidadi İsmail oğlu
İbrahimbəyova Anna Yuryevna
İsmayılov Qurban İbrahim oğlu
Qasımov İntiqam Böyükağa oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Quliyeva Xalidə Camal qızı
Mustafayev Vaqif Behbud oğlu
Nəzirli Şəmistan Əmiraslan oğlu
Rüstəmov Aslan Mahmud oğlu
Süleymanlı Şamil Kamran oğlu
Şıxlinskiy Ziya Ənvər oğlu.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 6 may 2023-cü il**



## Baş nazir Dünya Minifutbol Federasiyasının prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 6-da ölkəmizdə səfərdə olan Dünya Minifutbol Federasiyasının prezidenti Filip Cuda ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə F.Cudanın Bakıda keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq minifutbol turnirində iştirakı yüksək qiymətləndirilib.

İdmanın inkişafı məqsədilə ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlərə diqqət çəkilərək Azərbaycanın artıq dünyada idman ölkəsi kimi tanındığı və bu sahədə qazandığı uğurların beynəlxalq idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyi bildirilib.

Eyni zamanda, Azərbaycan Minifutbol Federasiyası ilə Dünya Minifutbol Federasiyası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

***“Xalq qəzeti”***

## Beynəlxalq Kanoe Federasiyasının və Avropa Kanoe Assosiasiyasının prezidentləri ilə görüş



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 6-da ölkəmizdə səfərdə olan Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konyetsko və Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə T.Konyetskonun və J.Zunqrananın Azərbaycanda keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş avarçəkmə üzrə “Prezident kuboku-2023” reqatasında iştirakı yüksək qiymətləndirilib.

Turnirin təntənəli açılış mərasiminin artıq üçüncü dəfə ölkəmizin işğaldan azad edilmiş bölgəsində - Suqovuşanda keçirilməsi məmnunluqla vurğulanıb, yarışda iştirak edən ölkələrin sayının ilbəil artdığı diqqətə çatdırılıb.

Eyni zamanda, Azərbaycanla Beynəlxalq Kanoe Federasiyası və Avropa Kanoe Assosiasiyası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

***“Xalq qəzeti”***

## “Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq”

**Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter hesabında yazıb.**

“Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi Naxçıvanda, doğulduğu yerdə iqamətgahı Bakıda və Ankarada yerləşən diplomatik korpusla birgə qeyd edilib. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq və bütün region üçün yeni imkanlar yaranacaq”, – deyə Hikmət Hacıyev qeyd edib.

***“Xalq qəzeti”***

## İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002 ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abdullayeva Xurşud Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağakişiyev Rauf Fikrət oğlu
Ağasiyev Tural Aydın oğlu
Ağasoy Həsən Vəliqulu oğlu
Ağayev Miraslan Əzizəli oğlu
Ağayev Ziya Səbuhi oğlu
Allahverdiyev Ceyhun Kərim oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Arsentyeva Olqa Anatolyevna
Aslanova Elmira Ramazanovna
Atakişiyeva Asya Çingiz qızı
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva Töhfə Ağaəli qızı
Bağırova Sənubər Yusufovna
Baliyeva Natalya Gennadyevna
Barateliya Naala Raulyevna
Bayramov Təyyar Allahverdi oğlu
Bəşirov Xanlar Əyyub oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Samir Qadir oğlu
Dubovitskaya Mariya Aleksandrovna
Eyvazov Nadir Samir oğlu
Eyvazova Ayan Fuad qızı
Eyyubov Musa Eyyub oğlu
Əbdülsəmədova Zemfira Feyzulla qızı
Əbilova Könül Allahverdi qızı
Əfəndi Elçin Fərahim oğlu
Əfəndiyeva Xəlilova İlahə Əhsan qızı
Əhmədov Bağır Kənan oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əhmədova Aynur Əhməd qızı
Ələkbərzadə Mehriban Zaur qızı
Əlili Hüseyn Azad oğlu
Əliyarov Elvin Bahadur oğlu
Əliyev Ələkbər Həsən oğlu
Əliyev İqbal Adil oğlu
Əliyev Samir Asəf oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Ülkər Sabir qızı
Əlizadə Şəhla Seidşah qızı
Əmirbəyova Rita Cəmil qızı
Əsgərov Əsgər Əkbər oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Fətullayeva Aygün Bəhruz qızı
Gözəlova İradə Vaqif qızı
Hacıyeva Sevil İnşalla qızı
Hadı-zadə Kərəm Əmiralı oğlu
Haxverdiyev Behruz Əyyub oğlu
Heybətov Anar Mithət oğlu
Həbibov Nicat Əli oğlu
Həbibova Azadə Həsən qızı
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənova Natavan Mikayıl qızı
Həsənova Səbirə Nasif qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Hüseynov Rövşən Maqsud oğlu
Hüseynova İlahə Həsən qızı
Hüseynova Kamilla Fikrət qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Səmədzadə Nadir oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbişov Tahir Fidayə oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanov Əbülfəz Hüseyn oğlu
İmranova İnna Aleksandrovna
İskəndərova Sənubər Sabir qızı
İsmayılova Şəhla Əli qızı
İsrafilov Fərhad Ramazan oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimov Elnur Umbay oğlu
Kərimov Loğman Seyfulla oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Quliyev Aydın Baloğlan oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əli Bala oğlu
Quliyev Ələsgər Kamran oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyeva Səbinə Kasumovna
Quliyeva Şəlalə Şahvələt qızı
Qurbanov Cahangir Qafar oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehmandarov Mustafa Adil oğlu
Mehrəliyev Vüsal Akif oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədova Günel Əzizağa qızı
Məmmədova Həcərxanım Cavanşir qızı
Məmmədzadə Nəsimi Əyyub oğlu
Məmmədzadə Səbinə Namiq qızı
Məsimov Qurban Abdulla oğlu
Mikayılov Mikayıl Şamil oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəzadə Nicat Qərib oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayev Vüsal Sədaqət oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Nağıyev Qasım Gəncalı oğlu
Nəbiyeva Mehri Rasim qızı
Nəsibova Rada Ziyad qızı
Nəzərov İlham İslam oğlu
Niftəliyeva Nurbəniz Nurəddin qızı
Nuriyev Cavad Fərhad oğlu
Oduşev Timur Vladislavoviç
Orucova Naidə Mülük qızı
Orucova Sevda Nəbi qızı
Osmanov Fuad Tacəddin oğlu
Ömərov Gümrah Rza oğlu
Poladov Əkrəm Nicad oğlu
Rəsulov İsrafil Fərhad oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Rüstəm Qərib oğlu
Rzayeva Nigar Azər qızı
Rzayeva Vəfa Əliseyran qızı
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyidova Ceyla Uran qızı
Səfərova İlahə Qiyas qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Samir Səməd oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şahaliyev Elxan Savalan oğlu
Şirinov Asif Əhməd oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə Mahir Tahir oğlu
Vahabzadə Səbinə Qulam qızı
Vəliyeva Leyli Fətulla qızı
Vəliyeva Nigar Natiq qızı
Yahyayev Taleh Saleh oğlu
Zaliyeva Mehriban Əskərali qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarova Əminə Cahangir qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** “İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 may tarixli 3246 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 488) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 6 may 2023-cü il**

## Nazirlər Kabinetində ulu öndər Heydər Əliyevin barelyefi açılıb

**Ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar mayın 6-da Nazirlər Kabinetinin binası qarşısında ümummilli liderin barelyefinin açılışı olub.**





Baş nazir Əli Əsədov və hökumət rəsmiləri açılış mərasimində iştirak ediblər.

Tədbirdə çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, barelyefin açılmasında əsas məqsəd ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad etmək və onun Azərbaycan xalqı üçün gördüyü misilsiz işləri bir daha yada salmaqdır.

Baş nazir deyib ki, ulu öndər Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycanın rəhbəri olan zaman Mərkəzi Komitə və Nazirlər Kabineti məhz bu binada yerləşirdi. 1982-ci il oktyabrın sonunadək bu binada fəaliyyət göstərən ulu öndər o qədər də böyük olmayan iş otağından Azərbaycan üçün çox mühüm, kifayət qədər böyük işlər görüb. Ümummilli lider Azərbaycan xalqının qəlbində özü üçün o qədər böyük heykəl ucaldıb ki, Vətənini, dövlətini, xalqını sevən hər bir azərbaycanlı bunu yüksək qiymətləndirir.

## “Mən Azərbaycana lazım idim”



**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfransda səslənən və yaddaqalan əsas fikir bu oldu.**

Bakıda Nazirlər Kabinetinin təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu: sosial-iqtisadi keçidin tarixi və müasirliyi” mövzusunda konfrans keçirilib. Tədbirdə Baş nazir Əli Əsədov, hökumət nümayəndələri və deputatlar iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Baş nazir Əli Əsədov ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan edildiyini diqqətə çatdırıb. Azərbaycanın müasir tarixinin görkəmli dövlət xadimi, dahi siyasətçi və böyük şəxsiyyət, müstəqil dövlətçiliyimizin memarı Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edən Baş nazir Azərbaycanın indiki inkişaf yolunun ötən əsrin 70-ci illərindən, ulu öndərin respublikada, həm də SSRİ-də rəhbər vəzifələrdə işlədiyi dövrdən başladığını bildirdi:

“Ulu öndərin respublika rəhbəri kimi fəaliyyət göstərdiyi 1969-1982-ci illər Azərbaycan tarixinə irimiqyaslı quruculuq və dinamik inkişaf dövrü kimi daxil olub. Heydər Əliyev sovet rejiminin bütün imkanlarından maksimum istifadə edərək, Azərbaycanı keçmiş SSRİ miqyasında qabaqcıl respublikalar sırasına çıxarıb, mərkəzdən dotasiya almayan iki respublikadan birinə çevirib. Həmin illərdə respublikada xalq təsərrüfatının artım sürəti orta İttifaq səviyyəsini xeyli qabaqlayıb, istehsal edilən milli gəlir 2,6, sənaye məhsulunun həcmi 2,7, kənd təsərrüfatı məhsulları 2,3 dəfə artıb”.

Heydər Əliyevin qarşıya qoyduğu strateji hədəflərdən biri kimi respublikada güclü kadr potensialı yaratmaq, yüksək ixtisaslı mütəxəssislər yetişdirmək olduğunu deyən Baş nazır ümummilli liderin bu məqsədlə yeni ali və orta ixtisas məktəbləri yaratdığına diqqəti çəkib.

Daha sonra çıxış edən Xarici işlər naziri Ceyhun Bayramov Heydər Əliyevin bir sıra xarici ölkələrə səfərlərinin, keçirdiyi görüşlərin, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə apardığı danışıqların Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadığını vurğulayıb.

Konfransın gedişində digər çıxışçılar – İqtisadiyyat naziri Mikayıl Cabbarov, Ədliyyə naziri Fikrət Məmmədov və başqaları ulu öndərin həyat və fəaliyyəti ilə bağlı fikirlərini, xatirə və düşüncələrini bölüşüblər. Tədbirin sonunda Heydər Əliyevin 100 illiyinə həsr olunan “Mən Azərbaycana lazım idim” adlı film nümayiş etdirilib.

***“Xalq qəzeti”***

## XİN fransalı nazirə cavab verib

**Fransanın Avropa və xarici işlər naziri Katrin Kalonanın Azərbaycanın Qarabağ bölgəsini yanlış olaraq “Dağlıq Qarabağ” şəklində Azərbaycanın daxilində “anklav” adlandırması Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, eləcə də bu bölgədən kütləvi etnik təmizlənməyə məruz qalmış azərbaycanlıların hüquqlarına hörmətsizlikdir.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Ayxan Hacızadə Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın “France Inter” ictimai radio kanalına verdiyi müsahibə zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair yerli medianın sualına cavabında deyib.

“Fransa nazirinə bir daha xatırlatmaq istərdik ki, Qarabağ bölgəsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisi və tərkib hissəsidir. Bununla yanaşı, Azərbaycanın öz suveren ərazisində yaratdığı və erməni sakinlərin artıq şəffaf şəkildə hər iki istiqamətdə keçməyə başladığı “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsinin guya yolu blokadada saxladığı barədə Fransa tərəfinin iddiasının heç bir əsası yoxdur. Azərbaycan öz sərhədlərinin mühafizəsini və bu sərhədlərdən keçidi ölkə qanunvericiliyinə və beynəlxalq səviyyədə qəbul edilmiş qaydalara uyğun olaraq həyata keçirir. Fransa tərəfi sülhə və sabitliyə xidmət etməyən bu kimi təhrikçi və təxribatçı fikirlərə son qoymalıdır”, – deyə Ayxan Hacızadə əlavə edib.

# Ankara – Bakı qardaşlığının xarakteri heç zaman dəyişməyəcək



**Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsi burada, Şuşada, bu binadan bir neçə metr aralıda imzalanmışdır. Bu, tarixi hadisə idi. Buna baxmayaraq, Azərbaycanla Türkiyə arasında münasibətlər de-fakto müttəfiq münasibətləri idi və biz bunu xüsusi olaraq son iyirmi ildə nümayiş etdirmişdik.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Şuşa, 3 may 2023-cü il**

**Azrbaycan Prezidentinin arsenalını təkcə müasir silah-sursat və modern texniki vasitələr təşkil etmir. Onun silahları arasında xalq-iqtidar birliyi, hücum diplomatiyası və informasiya müharibəsi kimi sınaqdan çıxmış vasitələr də var. Dövlət başçımız 2020-ci il martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında demişdi ki, biz bu gün beynəlxalq aləmdə hücum diplomatiyası aparmalıyıq: "Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq...Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya".**

Bu fikirlər İkinci Qarabağ müharibəsindən təxminən altı ay əvvəl səsləndirilmişdi. Həmin çağırışların nəticəsini isə təxminən yeddi ay yarımdan sonra –işğalçı ölkənin rəhbəri təslimolma sənədini imzalayanda gördük. Ancaq həmin günlərdə müharibə bitmişdi, mübarizə isə hələ də davam edir. Ona görə də dövlət başçımız həm informasiya müharibəsini, həm də hücum diplomatiyasını əvvəlki templə davam etdirir. Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən dördüncü beynəlxalq konfrans da həmin prosesin mühüm tərkib hissələrindən biri idi.

Dövlət başçımız tədbirdə iştirak edən əcnəbi mütəxəssislərin suallarını cavablandırarkən təxminən iyirmidən çox məsələ haqında danışdı və ən sadə vətəndaş da görürdü ki, həmin cavabların hamısı zaldakılardan çox beynəlxalq aləmdəki bədxahlarımıza ünvanlanmışdı. Xatırladaq ki, bu gün dünyadakı anti-Azərbaycan qüvvələri ən çox narahat edən məsələ Azərbaycan – Türkiyə müttəfiqliyi və Türk Dövlətləri Təşkilatının beynəlxalq güc mərkəzlərindən birinə çevrilməsidir.

Adı çəkilən konfransda ABŞ-ın Ceymstaun Fondunun baş elmi işçisi Vladimir Sokor Azərbaycanın NATO-ya üzv ölkə və regional güc olan Türkiyə ilə NATO çərçivəsindən kənar ikitərəfli müttəfiqlik qurduğunu yada saldı və əlavə etdi ki, bu, bütün postsovet kontekstində Azərbaycanın təkrarolunmaz nailiyyətidir. Çünki bu münasibətlərdə hərbi və təhlükəsizlik sahəsində müttəfiqlik var. Bu müttəfiqlik strateji tərəfdaşlıqlardan da yaxındır.

Dövlət başçımız okeanın o tayından gəlmiş alimin həmin qənaətini yüksək qiymətləndirərək əlavə etdi ki, Ərdoğanın Türkiyəyə rəhbərlik etdiyi son iyirmi ildə bizim münasibətlərimiz mənim onunla birgə səylərimiz nəticəsində təkcə qardaş xalqlar arasında deyil, eyni zamanda, müttəfiqlər arasında olan münasibətlərə çevrilmişdir: "Biz bunu dəfələrlə nümayiş etdirmişik. Buna görə, əlbəttə ki, bu, regional inkişafın önəmli amilidir və siz Azərbaycanın Türkiyənin hərbi müttəfiqi olmasından dolayı olaraq NATO-nun hərbi müttəfiqinə çevrilməsini söyləməkdə tamamilə haqlısınız".

Prezidentimizin fikrincə, Azərbaycanla Türkiyə nəinki bu müttəfiqliyin formatını qoruyub saxlayacaq, hətta onu gücləndirəcəkdir. Çünki yeni geosiyasi reallıqda bu, artıq regional sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevrilib. İstər bu hərbi komponent, enerji, kommunikasiyalar, istərsə də ticarət və s. sahələr olsun: "Mən çox nikbinəm və düşünürəm ki, Türkiyə və Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakterini heç nə dəyişməyəcək.

Başqa bir məqamı da yada salmaq istərdik. Macarıstanın Beynəlxalq Əlaqələr İnstitutunun tədqiqatçı professoru Vasa Laslo Azərbaycanın nə zamansa qurulacaq Mərkəzi Asiya ölkələrinin iqtisadi birliyinə qoşulub-qoşulmayacağı barədə sualı da tədbir iştirakçıları üçün maraqlı idi. Ancaq Prezident öz cavabında söyləyəcəklərinin Mərkəzi Asiyada da maraqla izlənəcəyini nəzərə alaraq dedi ki, əgər bu, baş versə biz nə edəcəyimizə baxarıq: "Azərbaycan Mərkəzi Asiya ölkəsi deyil. Amma tarixi və mədəni əlaqələrlə, indi isə daha çox siyasi əlaqələrlə Mərkəzi Asiya ilə sıx bağlıdır... Ötən ay mən Tacikistan və Qazaxıstanda rəsmi səfərdə oldum. Martda Özbəkistan və Türkmənistan prezidentləri Azərbaycanda səfərdə oldular. Mən, həmçinin ötən ilin sonunda Qırğızıstanda rəsmi səfərdə oldum. Ötən il mən Özbəkistana 3 dəfə səfər etdim. Beləliklə, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında dialoqun necə fəal olduğunu görə bilərsiniz. Bu, çox müsbət dinamikadır. Düşünürəm ki, ümumilikdə, nəsə olacağı təqdirdə nə ola biləcəyindən asılı olmayaraq, Mərkəzi Asiya və Azərbaycan gələcəkdə, ilk növbədə, sözsüz ki, nəqliyyat, təhlükəsizlik məsələləri baxımından daha çox inteqrasiyalaşmış ola bilər".

Xatırladaq ki, Mərkəzi Asiya ölkələri üçün nəqliyyat, təhlükəsizlik məsələləri və ixrac bazarlarına çıxış bu gün əvvəlkindən daha çox əhəmiyyət kəsb edir. Dövlət başçımız əlavə etdi ki, biz Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələri ilə, Türkiyə ilə birlikdə Türk Dövlətləri Təşkilatındayıq: "Qeyd etdiyim kimi, Tacikistanla çox fəal siyasi və iqtisadi dialoqumuz var. Bu, bir növ bu günün reallığıdır. Əlbəttə, bunu daha da fəallaşdırmaq vacibdir… Sizə deyə bilərəm, son iki ildə mənim Mərkəzi Asiyadan olan tərəfdaşlarla qarşılıqlı əlaqələrim və qarşılıqlı səfərlər misli görünməmiş dərəcədə yüksəkdir. Düşünürəm ki, bu, sizin "nə isə baş versə, nə baş verər" sualınızın qismən cavabıdır".

Nəhayət, Böyük Britaniyanın Xarici İnkişaf İnstitutunun qlobal risk üzrə eksperti İlayda Nichar dövlət başçımızdan soruşdu ki, Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafında hansı rolu oynaya bilər? Sanki, bu, ingilis mütəxəssisin də İrəvanın yuxusunu ərşə çəkmək məqsədi var idi. Onun elə bir məqsədi olmasa da, dövlət başçımızın cavabından sonra nəinki İrəvanın, hətta Ermənistanın yuxusunun qaçması tamamilə gözləniləndir: "Azərbaycan Türk Dövlətləri Təşkilatının bütün fəaliyyəti dövründə fəal olub... Bizim geniş coğrafiyamız, bəzi ölkələrdə böyük təbii sərvətlər, o cümlədən enerji ehtiyatları, bəzi ölkələrin güclü hərbi imkanları var. Beləliklə, biz bütün bu səyləri birləşdirsək, əlbəttə ki, qlobal səviyyədə ciddi oyunçu görə bilərik. Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır. Bir daha deyirəm, əhali, coğrafiya, nəqliyyat marşrutları, Avrasiya komponenti, enerji ehtiyatları var. Türkiyə NATO-nun ikinci böyük ordusuna malikdir. Azərbaycan öz hərbi imkanlarının olduqca yüksək olduğunu nümayiş etdirib. Bütün bu imkanları birləşdirsək, hər kəs bundan yalnız faydalana bilər".

Bəli, bu gün Türk dünyası ölkələri prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin bütün sahələrdəki təşəbbüskarlığını dəstəkləyir, alqışlayır və qarşıda duran vəzifələrin icrasına özünəməxsus töhfələr verirlər. Bu dövlət başçımızın dediyi kimi, imkanların birləşdirilməsidir. Bunu isə xalqlarımızın taleyi və zaman tələb edir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Erməni işğalındakı 8 kənd: İrəvan həm "hə" deyir, həm də "yox"



**Ermənistanın işğalda saxladığı 8 Azərbaycan kəndinin azad edilməsi rəsmi Bakının İrəvanla sülh danışıqlarında irəli sürdüyü əsas tələblərdəndir.**

Tarixi Azərbaycan yurd yerləri olan bu kəndlərin Azərbaycana məxsus olduğu Ermənistan tərəfindən də təsdiqlənməkdədir. Ermənistanın baş naziri Nikol Paşinyan ötən gün "Azadlıq" radiosuna verdiyi müsahibədə 8 kəndi Azərbaycana qaytarmağa hazır olduqlarını bildirsə də, bunun qarşılığında müəyyən tələblər irəli sürüb. Daha doğrusu, ölkəmizə qarşı yeni ərazi iddiası ilə çıxış edib. Paşinyan iddia edir ki, bəzi erməni kəndlərinə məxsus torpaq sahələri Azərbaycanın nəzarəti altındadır və Ermənistan işğaldakı 8 kəndi yalnız o zaman azad edə bilər ki, rəsmi Bakı erməni kəndlərinə məxsus əraziləri geri qaytarsın: "Bizim də işğal olunmuş kəndlərimiz var və kənd təkcə kənd inzibati binası deyil... Məsələn, Berkaber, Vazaşen, Ayqeovit, Paravakar kəndləri, onların əkin sahələrinin böyük əksəriyyəti işğal altındadır. Azərbaycan geri qayıtmağa hazırdırmı? (əgər hazırdırsa), bəli, biz də hazırıq".

Göründüyü kimi, Paşinyan 8 kəndin Azərbaycana məxsus olduğunu bildirsə də, işğaldakı kəndləri təmənnasız azad etmək niyyətində olmadığını deyib. Şübhəsiz, Ermənistanın hər hansı kəndinin Azərbaycanın nəzarətində olması ilə bağlı səsləndirilən fikirlər tamamilə absurddur və Paşinyanın erməni kəndi kimi qələmə verdiyi ərazilər tarixi Azərbaycan torpaqlarının bir hissəsidir. İşğaldakı torpaqlarımızı yeni ərazilər hesabına geri qaytarmaq istəyi rəsmi İrəvanın növbəti siyasi həyasızlığıdır və bu, erməni xislətinin islaholunmazlığından xəbər verir.

***

Maraqlıdır, Paşinyanın bir tərəfdən 8 kəndi Azərbaycana qaytarmağa hazır olduqlarını bəyan etməsinə, digər tərəfdən isə ölkəmizə qarşı yeni ərazi iddiaları səsləndirməsinə səbəb nədir? Çox güman ki, bu, hər şeydən öncə, Ermənistanın ictimai-siyasi həyatındakı gərgin və mürəkkəb vəziyyətdən irəli gəlir.

Xatırladaq ki, Paşinyan bundan öncəki çıxışlarında Ermənistan cəmiyyətinin ona "satqın" damğası vurmasından şikayətlənmiş, artıq bu sözə öyrəşdiyini, bu ittihamı soyuqqanlıqla qarşıladığını vurğulamışdı. Ola bilsin ki, Paşinyanın Azərbaycana qarşı yeni iddialar səsləndirməsi onun daxili auditoriyanı sakitləşdirmək, İrəvanın Bakıya təmənnasız güzəşt etməyəcəyini çatdırmaq məqsədi daşıyır. Mümkündür ki, Paşinyan bununla göstərmək istəyir ki, o, Azərbaycanın tələbini yerinə yetirməklə yanaşı, Ermənistanın da maraqlarını müdafiə edir və bu məsələdə prinsipiallıq sərgiləyir.

İstənilən halda, baş verənlər Paşinyanın iki od arasında qaldığını, qərarla qərarsızlıq arasında var-gəl etdiyini göstərir. Bir tərəfdən işğaldakı kəndləri qaytarmaq zərurəti, digər tərəfdən öz xalqı tərəfindən ittiham edilmək qorxusu Paşinyanın siyasi lider kimi praktiki olaraq iflic etməkdədir. Lakin Paşinyan da yaxşı anlayır ki, kimin nə deməyindən asılı olmayaraq, Azərbaycan işğaldakı 8 kəndin də azadlığına nail olacaq və tarixi ədaləti bərpa edəcək.

***

İşğaldakı 8 Azərbaycan kənd ətrafında aparılan müzakirələr çərçivəsində diqqət çəkən məqamlardan biri də Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Toivo Klaarın verdiyi ermənipərəst açıqlama oldu. Məlum açıqlamasında Toivo Klaar Ermənistandakı kəndlərlə bağlı danışarkən onların "statusu" ilə bağlı müəyyən fikirlərin olduğunu qeyd edib. Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Azərbaycanla Naxçıvan arasında tranzit marşrutundan danışarkən isə bəhs edib ki, "əgər belə bir dəmir yolu Ermənistan ərazisində yerləşirsə, o, Ermənistanın qanun və qaydalarına uyğun fəaliyyət göstərməlidir".

Toivo Klaar Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyinə də toxunub və bunun İrəvanla Bakı, Bakı ilə Xankəndi arasındakı danışıqlardan asılı olduğunu bildirib. Hansı ki, Bakı heç vaxt Xankəndi ilə hər hansı danışıq aparmayıb və aparmaq fikri də yoxdur. Ümumiyyətlə, yaxşı olardı ki, Toivo Klaar Qarabağdakı ermənilərin gələcək aqibəti ilə bağlı yersiz narahatlıq duymaqdan, separatçılara cəsarət resepti təqdim etməkdənsə, ermənilərin törətdiyi təxribatlara diqqət yetirsin. Çünki heç nə sülh prosesinə bu təxibatlar qədər böyük ziyan vurmur.

***Seymur ƏLİYEV***

**Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsində türklərə qarşı düşmənçiliyi əks etdirən, XX əsrin əvvəllərində türk diplomatların, eləcə də azərbaycanlı siyasilərin qətllərinin həyata keçirilməsi əməliyyatı olan "Nemezis"ə abidə qoyulmasını yanlış addım adlandırıb. Bu barədə o, "Azadlıq" radiostansiyasına müsahibəsində bildirib. Erməni baş nazirin sözlərinə görə, bu abidənin ucaldılması ilə bağlı qərar hökumət deyil, yerli idarəçilik orqanı tərəfindən verilib.**

# Ermənistan hakimiyyətinin ağızucu "Nemezis" üzrxahlığı



Maraqlıdır ki, Paşinyan yaranmış durumu demokratiya ilə əlaqələndirib. Daha doğrusu, vəziyyəti demokratiyanın gətirdiyi xoşagəlməzlik kimi əsaslandırıb. Arqumenti isə bu olub ki, guya, demokratiya şəraitində hökumət başçısı hamını nəzarətdə saxlaya bilmir: "Bəli, bu, bizim komandadır. Bu hadisə emossional, bir çoxlarının bəzilərini "satqın" adlandırdıqları və güllələnmə ilə hədələdikləri fonda baş verib. Dərin problemlər var..."

Paşinyanın demokratiya ilə ifrat liberalizmi və anarxizmi qarışıq salması onun dünyagörüşündəki qısırlığın məhsuludur, belə yanaşma özlüyündə absurddur. Yəni, demokratiya üçün özbaşınalıq amili yoxdur. Əksinə, qanunun aliliyi və dövlət strukturlarının fəaliyyətinin mütəhərrikliyi, bir-biri ilə koordinasiya olunmuş şəkildə işləməsi var. Əgər, həqiqətən də, erməni baş nazirin "Nemezis" abidəsinin qoyulmasından xəbəri olmayıbsa, bu, anarxik durumdan, özbaşınalıqdan, saymazyanalıqdan başqa bir şey deyil.

Bəli, Paşinyan "dərin problemlər var" deməkdə haqlıdır. Həqiqətən, Ermənistan cəmiyyətində olduqca dərin problemlər var. Cəmiyyət xəstəlikdən qurtula bilmir. İki əsrə yaxın müddətdə özünü türklərə qarşı nifrət ritorikasına kökləmiş, düşmən axtarışı ilə varlığını sürdürməkdə olan, XX əsrin sonlarına doğru əldə etdiyi dövlətçiliyi də qonşularına münasibətdə qəzəb və hiddət motivləri üzərində inkişaf etdirən toplumun durumu ağırdır. Elə Ermənistan hakimiyyətinin bugünkü acınacaqlı durumu, həm də qeyd etdiyimiz, yumşaq desək, xoşagəlməz tendensiyanın birbaşa təsiridir.

Söhbət demokratiyadan düşmüşkən, qeyd edək ki, Paşinyan 2018-ci ildə hakimiyyətə gələndən sonra, məhz demokratiyanı erməni qəzəb və hiddətinin tərənnümü üçün alətə çevirmişdi. "Qarabağ Ermənistandır" bəyanatını verən indi "Nemezis" abidəsini qoyanlar deyildi, baş nazirin özü idi. Yəni, Nikol demokratik seçki ilə hakimiyyətə gəlməsinə, ən əsası isə xunta rejimini devirməyin dünyada qazandırdığı nüfuza güvənərək, ənənəvi erməni qəzəbini işə salmışdı. Beynəlxalq hüququn norma və prinsiplərinə meydan oxumuşdu. Başqa sözlə desək, Paşinyan demokratiyası da azərbaycanlılara və türklərə münasibətdə nifrətə, qəsbkarlığa köklənmişdi. 44 günlük müharibədəki acınacaqlı məğlubiyyət həm də bu düşüncənin böyük cəzasına çevrildi. Savaşdakı rüsvayçılığın nəticəsidir ki, hazırda Nikol erməni cəmiyyətindəki dərin problemlərin mövcudluğuna diqqət yetirməkdədir. Deməli, "müharibə terapeyası" olmalıymış...

Bəli, nifrət və qəzəb Ermənistanın müasir dövlətçiliyinin, necə deyərlər, başqaxıncına çevrilməkdədir. Bu gün Paşinyan öz ölkəsində abidənin qoyulmasına "səhv addım" deyirsə, bu, eyni zamanda, üzrxahlıqdır. Lakin üzrxahlıq açıq şəkildə deyilməlidir. Özünə hörmət edən dövlət bu günə düşməz. Ancaq söhbət Ermənistandan gedirsə, belə bir aqibət məntiqi və qanunauyğundur.

Ermənistanın Türkiyədə səfərdə olan parlament sədri Alen Simonyanın "Nemezis"lə bağlı söylədikləri də diqqət çəkməkdədir. Doğrudur, Simonyan Paşinyan kimi "dərin problemlərdən" danışıb konspoloji fəlsəfə ilə əlaqədar eyham vuracaq qədər siyasi romantik olmağı bacarmır. O bildirir ki, "Nemezis" abidəsini Ermənistanın xarici siyasətinin təzahürü kimi qiymətləndirmək lazım deyil. "Çox təəssüf ki, abidənin ucaldılması Türkiyədə böyük reaksiya doğurdu. Mən bunu türkiyəli həmkarımla müzakirə etdim. "Nemezis" abidəsinin qoyulmasına dair qərar yerli idarəçilik orqanı tərəfindən verilib. Bu qərarı Ermənistanın xarici siyasət kursu və qeyri-dost davranışı olaraq qəbul etmək lazım deyil. Ermənistanın xarici siyasətini baş nazir, xarici işlər naziri müəyyənləşdirir və siz hamınız bu səviyyədə görülmüş işlərə şahidsiniz", – deyə Simonyan vurğulayıb.

Erməni spikerin fikirlərində bir məqam da var. O bildirir ki, münasibətlərin pisləşməsini istəyəndə çox səbəb tapmaq mümkündür. "Mən özüm də çox səbəb tapa bilərdim ki, Türkiyəyə gəlməyim. Amma mən türk cəmiyyətinə Ermənistanın heç bir şərt qoymadan sülhə və münasibətlərin normallaşmasına hazır olduğunu bildirmək üçün Türkiyədəyəm. Başa düşmək lazımdır ki, yol asan olmayacaqdır. Ancaq irəliyə doğru getmək lazımdır. Ümid edirəm ki, türkiyəli tərəfdaşlarımız da irəliyə doğru gedəcəklər və biz tarixi şansdan istifadə edərək, özümüz və regionumuz üçün yeni səhifə açacağıq", –deyə A.Simonyan vurğulayıb.

Təbii ki, Simonyanın da bəzi fikirləri ilə razılaşmaq mümkündür. O anlamda ki, həqiqətən Türkiyə-Ermənistan münasibətlərinin normallaşması baxımından tarixi şans yaranıb. Ancaq erməni spikerin də söylədiyi kimi, bu şans həm də region üçündür. O region üçün ki, orada Azərbaycan da var. Nəinki var, həm də kifayət qədər ciddi aktordur. Ermənistan Türkiyə ilə düşmənçilik səhifəsinin qapadılması ritorikasından çıxış edirsə və bu baxımdan "Nemezis" vəhşiliyinin XXI əsrdəki ləkəsini öz üzərindən silib atmaq istəyirsə, gərək, tam səmimi olsun. Elə Türkiyəyə münasibətdə də səmimi davranmalıdır. Yəni, Simonyan deməməlidir ki, Türkiyəyə gəlməmək üçün səbəblər tapa bilərdi. O, belə bir səbəbin ola biləcəyini, ümumiyyətlə, ağlından keçirməməlidir. Həm də ona görə ki, indiki dövrdə Türkiyə və Azərbaycan Ermənistanın xilasıdır. Ankara və Bakı ilə münasibətlərin normallaşmaması isə İrəvan üçün iflasdır. Bu, açıq tekstlə bildirilməlidir.

Bu gün Türkiyə Azərbaycandır, Azərbaycan isə Türkiyə. Təsadüfi deyil ki, "Nemezis" abidəsinə ölkəmizin Xarici İşlər Nazirliyi də reaksiya vermiş, heykəlin ucaldılmasını qəti şəkildə pisləmişdi. Regional münasibətlərdə də ölkələrimiz eyni mövqedən çıxış edirlər. Yəni, indiki durumda Ermənistanın Türkiyəni ayrıca tutmağı və mövcud istiqamətdə yanaşmalar irəli sürməyi, Simonyanın şəxsində ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə yönələn səmimiyyət zəngülələri vurması mənasızdır. Nəzərə alaq ki, Türkiyə-Ermənistan sərhədlərinin illərdir bağlı qalmasının səbəbi Azərbaycan torpaqlarının işğalı idi.

Digər tərəfdən, hazırda Ermənistandan Türkiyəyə gerçəkləşdirilən səfərlər olduğu kimi, eyni iradə Azərbaycanla bağlı da ortaya qoyulmalıdır. Prezident İlham Əliyevin bildirdiyi kimi, vasitəçilərsiz, təkbətək danışıqlara üstünlük verməlidirlər və əsrlərdir "Nemezis" və törətdikləri bu qeyri-insani davranışlara görə Cənubi Qafqaz regionunda itirdikləri inam və etimadı bərpa etmək barədə ciddi şəkildə düşünməlidirlər. Əlbəttə, bu anlamda da Simonyan haqlıdır ki, yol asan olmayacaq. Ancaq Ermənistan yolun gedilməli olduğunu tam şəkildə anlamalıdır.

Bəli, bu gün paşinyanlar, simonyanlar və özlərini mütərəqqiliyə kökləmiş başqa "yanlar" erməni cəmiyyətini "Nemezis" və digər ona bənzər xəstəliklərdən qorumaq üçün ciddi səy göstərməlidirlər. Son dərəcə səmimi olmalıdırlar. Elə erməni xalqına münasibətdə də səmimi olmalıdırlar. Xalqın qarşısına çıxıb tam açıq şəkildə düşmənçilik səhifəsinin tarixə gömüldüyünü bəyan etməlidirlər. Hələlik isə biz bu səmimiyyətin real elementlərini görmürük. Gördüyümüz fürsətcillikdir ki, bu da xəstə erməni xislətinin təzahürüdür. Ermənistan hakimiyyəti isə özündə cəsarət tapıb ilk növbədə bu mərəzdən qurtulmalıdır.

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# "Şahdəniz" layihəsi çərçivəsində hasilat artır

(əvvəli 1-ci səhifədə)

Rüb ərzində qazın "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib. Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Həmin qurğuların gündəlik hasilat gücü təxminən 74 milyon (ildə 27 milyard kubmetrdən artıq) kubmetr təşkil edir. Cari ilin ilk rübündə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" adlı platformalardan, ümumilikdə, təqribən 7 milyard kubmetr qaz və 1 milyon tondan artıq kondensat çıxarılıb.



Məlum olduğu kimi, layihə səhmdarlarının yekdil qərarına əsasən, "Şahdəniz" yatağının bir neçə mərhələdə işlənməsi qərara alınıb. Xatırladaq ki, birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb. Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Hazırda "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur. Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə isə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını işlənməyə daxil ediblər.

2023-cü ilin birinci rübündə "Şahdəniz-2" layihəsi çərçivəsində aparılan işlər yatağın şərq-şimal cinahından dördüncü rübə planlaşdırılan hasilatın başlanması qrafikinə uyğun irəliləyib. Quraşdırma və sınaq işləri həm sualtı, həm də "Şahdəniz Bravo" platformasının üst modullarında davam etdirilib. Layihə çərçivəsində yatağın qərb-cənub və şərq-şimal cinahlarında yeni sualtı fontan armaturalarının quraşdırılması tamamlanıb, şərq-şimal cinahının hasilat axın xətlərinin sınaq işləri başlanıb. Bütün bu işlər isə sahədə qazma əməliyyatları aparacaq "İstiqlal" qurğusu əraziyə gətirilənədək tam başa çatdırılmalıdır.

Bu ilin yanvar-mart aylarında konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Hesabat dövründə "Şahdəniz Alfa" platformasının qazma qurğusunda profilaktik işlər aparıldığından yeni quyu qazılmayıb. Bununla belə, hazırda "Şahdəniz-2" layihəsi çərçivəsində quyuların tamamlama işləri "İstiqlal" qazma qurğusu vasitəsilə davam etdirilir. Ümumilikdə isə, ötən müddətdə "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi çərçivəsində 21 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 4-ü qərb, 4-ü şərq, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb. Bundan əlavə, hazırda səhmdarlar tərəfindən "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş çərçivəsində yeni bir kəşfiyyat quyusunda qazma işləri aparılır. Qeyd edək ki, SDX-8 adlandırılan həmin quyunun qazılmasına 2023-cü il yanvarın 20-də Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə başlanılıb. "Şahdəniz" yatağının şərq cinahında yerləşən quyu yatağın hazırda istismarda olan məhsuldar laylarının altındakı daha dərin horizontları qiymətləndirmək məqsədilə qazılır.

"Şahdəniz" yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Buradakı mövcud qurğular qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə ötürür. Ötən il boru kəmərinin səmərəli idarə edilməsi məqsədilə yaradılmış şirkətin səhmdarları tərəfindən CQBK-nin əməliyyat tədbirlərinə təqribən 20 milyon dollar, əsaslı məsrəflərinə isə 2 milyon dollar xərclənib.

Qeyd edək ki, 2006-cı ilin sonlarında istismara verilimiş Cənubi Qafqaz boru kəməri "Şahdəniz" qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb.

2023-cü ilin ilk rübü ərzində CQBK-nin ixrac üçün gündəlik orta ötürücülük gücü 61,6 milyon kubmetr təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə Azərbaycanda magistral qaz kəmərləri ilə 11 milyard 520,3 milyon kubmetr qaz nəql edilib. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 7 faiz çoxdur. Qaz nəqlinin 47, 8 faizi və ya 5 milyard 511,4 milyard kubmetri Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*

***Türkiyədən məktub***

**Universitetimiz türk dünyasının, xüsusən də Azərbaycanın problemləri ilə yaxından maraqlanan, bu məsələlərin həlli yollarını axtaran təhsil müəssisəsidir. Böyük öndər Heydər Əliyevi Türkiyədə indiki və gələcək nəsillərə tanıtmaqda, eləcə də onun bənzərsiz bir şəxsiyyət olaraq türklüyə xidmətlərini təbliğ etməkdə Qazi Universiteti böyük rol oynayır".**

Bu fikirləri Qazi Universitetinin rektoru, professor Musa Yıldız "Xalq qəzeti"nə açıqlamasında bildirdi. Ali məktəb rəhbəri qeyd etdi ki, tarixdə mühüm rol oynayan, həyatını xalqının uğurlarına həsr edən tarixi şəxsiyyətlər vardır və bu mənada mərhum Heydər Əliyev ömrünü həm türk dünyasının, həm də Azərbaycan türklərinin rifahına həsr etmiş

# Türk dünyasının Heydər Əliyev sevgisi

dövlət xadimidir. Bu baxımdan Heydər Əliyevin anadan olmasının 100 iliyi ilə əlaqədar Azərbaycanla yanaşı, Türkiyədə də silsilə tədbirlərin keçirilməsi bu nadir şəxsiyyətə türk dünyasında olan sevgi və ehtiramı ifadə edir.

**Həmsöhbətim Heydər Əliyevin 80 illik həyatında mübarizə yolundan və Türkiyə–Azərbaycan əlaqələrinin güclənməsinə verdiyi töhfələrdən də bəhs etdi:**

– Naxçıvanda yaşadığı vaxtda onun türk dünyası ilə bağlı başlatdığı mübarizəsi, ömrünün son anına qədər dövlətinə, millətinə göstərdiyi fədakarlıq əsl nümunəvi əhəmiyyətə malikdir və bu xidmət nəsillərin yaddaşında qalacaqdır. Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" ifadəsi Azərbaycanda yaşayan qardaşlarımızla Anadolu coğrafiyasının insanları arasındakı münasibəti daha da yaxınlaşdırıb.

Eləcə də Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamı bizim çox yaxın müttəfiq olduğumuzun ən bariz göstəricisidir. Təsadüfi deyil ki, Heydər Əliyev vaxtilə universitetimizi də ziyarət edib, bizi şərəfləndirib və ona universitetimiz tərəfindən fəxri doktor adı verilib.

**Azərbaycanın 1990-cı illərdə müstəqilliyini tanıyan ilk ölkənin Türkiyə olduğunu xatırladan Musa Yıldız Heydər Əliyevin Türkiyə ilə bütün sahələrdə əməkdaşlığa önəm verdiyini bildirdi:**

– Düşünürəm ki, Heydər Əliyevin 1990-cı illərdə sovet ittifaqına qarşı mübarizəsi, 20 Yanvar hadisələrini törədənlərin cəzalandırılması tələbi gənclərimizə xüsusilə təbliğ olunmalıdır. 1995-ci ildə Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə həyata keçirilən böyük tələbə layihələri, bir çox sahələrdəki təsisat işləri, iqtisadiyyat, beynəlxalq əlaqələr, təhsil və mədəni fəaliyyətlər Heydər Əliyevin bu təşəbbüsləri dəstəkləməsi sayəsində baş tutub. Məhz bunun nəticəsidir ki, Azərbaycan əsgəri Türkiyədən aldığı hərbi təlim və dəstəkləri ilə təkmilləşdi, bununla da Qarabağ torpaqları işğaldan azad edildi.

Bu istiqamətdə Prezident İlham Əliyevlə Prezident Rəcəb Tayyib Ərdoğanın "İki dövlət, bir millət" prinsipi əsasında əməkdaşlığı qardaş ölkələrə, dostlara etimad, düşmənə qorxu verir. Biz "İki dövlət, bir millət" prinsipinin son nümunəsini Qarabağ müharibəsi zamanı ən parlaq şəkildə bütün dünyaya bəyan etdik. Ölkələrimiz arasında bu qardaşlıq və əməkdaşlıq ruhunun inkişafında Qazi Mustafa Kamal Atatürkdən Heydər Əliyevə qədər tarixə söykənən bir mərhələ var.



**Rəhbərlik etdiyi təhsil müəssisəsi haqqında məlumat verən rektor, universitetdə Azərbaycanla bağlı keçirilən və keçirilməsi nəzərdə tutulan tədbirlərə də toxundu:**

– Azərbaycanın universitetləri ilə Qazi Universiteti olaraq çox sahələrdə əməkdaşlığımız var. 2020-ci ildə universitetimizdə rektor kimi fəaliyyətə başladıqdan sonra 11 universitetlə təhsil-tədris əməkdaşlıq protokolları imzalamışıq. O cümlədən Azərbaycan Texniki Universiteti ilə elektrik və elektron mühəndisliyi sahəsində birgə diplom proqramı, 2023-2024-cü illər üçün Azərbaycan Tibb Universiteti ilə birgə tibb və fizioterapiya sahələrində birgə kurs proqramları, Erasmus+ və Orhun mübadilə proqramları ilə fəaliyyətimizi davam etdiririk.

Hazırda universitetimizdə bakalavr və magistratura pilləsində ümumilikdə 110 azərbaycanlı tələbə təhsil alır. İyun ayında isə Ankarada Mingəçevir Universiteti ilə bərabər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı simpozium keçiriləcək. Bundan əlavə, universitetimizdə Türk İncəsənət Cəmiyyəti və Türk Dünyası Araşdırmalar Mərkəzinin xətti ilə hər il mütəmadi olaraq Xocalı Soyqırımı və Qarabağ Zəfəri ilə bağlı tədbirlər keçirilir.

***M.SULTANOVA***

**Ankara**

# Müstəmləkəçi indi də anklavdan danışır

**Fransanın Xarici işlər naziri Ketrin Kolonna "France Inter" ictimai radio kanalına müsahibəsində Qarabağ bölgəsini Azərbaycan daxilində ermənilərlə məskunlaşmış anklav adlandırıb. O, bir daha Laçın yolunun blokadada olduğunu iddia edərək, yolun açılmasını tələb edib.**



Qeyd edək ki, bu, fransız nazirin ilk erməniprəst açıqlaması deyil. Mayın 20-də onun bu vəzifəyə təyin olunmasının bir ili tamam olacaq. Buna baxmayaraq, cəmi bir il ərzində xanım Kolonna Ermənistanın və dünya ermənilərinin maraqlarına uyğun səsləndirdiyi fikirlərin sayına görə sələflərini çoxdan ötüb keçib. Məsələn, Jan-İv Le Drian ondan əvvəl 5 il ərzində (2017-2022-ci illərdə) Fransa Xarici işlər naziri olub. Ancaq onun beş ildə verdiyi erməniprəst bəyanatlarının hamısını bir yerə yığsaq, K.Kolonnanın bir ildə səsləndirdiyi qədər olmaz. Bu mənada xanım nazir, necə deyərlər, Paşinyandan daha artıq erməni olmaq istəyinə düşüb.

Onu da bildirək ki, fransalı nazir az müddət öncə – aprelin 27-də ölkəmizdə səfərdə olub. Onun bölgəyə səfəri Ermənistandan yox, Azərbaycandan başlamışdı. Ancaq az sonra səfərin Azərbaycandan başlamasının yalnız görüntü xarakteri daşıdığı məlum olmuşdu. Belə ki, K.Kolonna Bakıda da açıq erməniprəst bəyanat vermişdi. O, Xarici işlər naziri Ceyhun Bayramovla birgə mətbuat konfransında demişdi: "Biz Azərbaycan tərəfdən birtərəfli qaydada qurulan keçid məntəqəsini (Laçında Ermənistanla şərti sərhəddə Azərbaycanın aprelin 23-də yaratdığı sərhəd nəzarət-buraxılış məntəqəsi nəzərdə tutulur) pisləyirik, bunu bəyan etmişik. Həmçinin, Beynəlxalq Ədalət Məhkəməsinin qərarı yerinə yetirilməlidir".

Ceyhun Bayramov isə fransız həmkarına anındaca cavab vermişdi: "Xanım nazir çıxışı zamanı dedi ki, Fransa Azərbaycan tərəfindən atılan birtərəfli addımları qəbul etmir. Həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin qərarına istinad da eşitdik. Birincisi, Azərbaycan öz Konstitusiyasına uyğun olaraq, öz ərazisində addım atıb. Bu addımından 2,5 il yarım öncə hər kəsə problemin mahiyyətini deyib. Bu illər ərzində Fransa bir dəfə də olsun Ermənistana çağırış etməyib. Beynəlxalq Ədalət Məhkəməsinin qərarına gəldikdə isə Laçın yolu üç istiqamət üzrə – vətəndaşlar, yüklər və nəqliyyat vasitələri üçün istifadə edilə bilər. Bu üç istiqamət üçün Laçın yolu hər zaman açıqdır".

***

K.Kolonnanın fikirlərinə Azərbaycan XİN-in cavabı bu dəfə də özünü çox gözlətməyib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, fransalı nazirin Azərbaycanın Qarabağ bölgəsini yanlış olaraq "Dağlıq Qarabağ" şəklində Azərbaycanın daxilində "anklav" adlandırması ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə, eləcə də, bu bölgədən kütləvi etnik təmizlənməyə məruz qalmış azərbaycanlıların hüquqlarına hörmətsizlikdir: "Fransalı nazirə bir daha xatırlatmaq istərdik ki, Qarabağ bölgəsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisi və tərkib hissəsidir".

A.Hacızadə qeyd edib ki, bununla yanaşı, Azərbaycanın öz suveren ərazisində yaratdığı və erməni sakinlərin artıq şəffaf şəkildə hər iki istiqamətdə keçməyə başladığı Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin guya yolu blokadada saxladığı barədə Fransa tərəfinin iddiasının heç bir əsası yoxdur: "Azərbaycan öz sərhədlərinin mühafizəsini və bu sərhədlərdən keçidi ölkə qanunvericiliyinə və beynəlxalq səviyyədə qəbul edilmiş qaydalara uyğun olaraq həyata keçirir. Fransa tərəfi sülhə və sabitliyə xidmət etməyən bu kimi təhrikçi və təxribatçı fikirlərə son qoymalıdır".

***

Həqiqətən də, fransalı nazirin Azərbaycan daxilindəki 14 iqtisadi rayondan biri olan Qarabağ iqtisadi rayonunu "anklav" adlandırması heç bir ölçüyə sığmır. Əgər hər bir ölkədə kompakt yaşayan milli azlıqlar üçün anklavlar yaradılsaydı, dünya elə anklavlardan ibarət olardı. Elə Fransanın özünü götürək, etnik tərkibi rəngarəngdir. Əhalinin 84 faizi fransızlardan ibarətdir. O cümlədən böyük regional etnik qruplar olan korsikalılar, oksitanlar, bretonlar, elzaslar, lotaringiyalılar, normandlar, flamandlar, katalonlar, basklar da bura daxildir. Fransa əhalisinin 7 faizini digər avropalılar, 7 faizini şimali afrikalılar, qalan 2 faizini isə indoneziyalılar, asiyalılar və Latın Amerikasından olanlar təşkil edir. Anklav yaratmaq münasibdirsə, Fransa bu hüququ öz daxilində kompakt yaşayan etnik azlıqlara münasibətdə tətbiq edə bilər.

Digər tərəfdən, K.Kolonna özü korsikalıdır. Yaxşı olar ki, o illərlə istibdad içində yaşamış Korsikanın, 300 minlik korsunun bugünkü problemlərini qaldırsın. K.Kolonna korsikalıların doğma dili korsunun hüququnun tanınmasına Fransa hökumətinin qarşı çıxmasına bir dəfə də olsun etiraz etməyib. Zənnimizcə, onun bu məsələni qaldırması, daha doğru olardı.

***

Onu da qeyd edək ki, Fransanın "öz gözündə tiri görməyib özgə gözündə tük axtarmaq" siyasətinə Prezident İlham Əliyev də dəfələrlə etirazını bildirib. Cənab İlham Əliyev Vətən müharibəsi dövründə – 2020-ci ilin oktyabrın 4-də "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində deyib: "Onlar Azərbaycandan əl çəkməlidirlər, onlar regiondan əl çəkməlidirlər. Biz burada öz torpağımızdayıq. Bizim torpağımız işğal olunub. Əgər Fransa Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar, demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər... qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya müstəqillik versinlər, qoy basklara müstəqillik versinlər. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar".

Dövlət başçımız Laçın rayonunun işğaldan azad olunması münasibətilə 2020-ci ilin dekabrın 1-də xalqa müraciəti zamanı Fransanın erməniprəst mövqeyinə bir daha toxunub: "İndi məsələ həll olunandan sonra görün nələr baş verir? Fransa Senatı qətnamə qəbul edir ki, Qarabağ tanınsın. Sizin onlardan xoşunuz gəlirsə, mən müharibə dövründə demişdim, verin Marsel şəhərini, onun adını dəyişdirin, onlara orada ikinci dövlət yaradın. Amma bizim işimizə heç kim qarışa bilməz".

Bəli, bizim işimizə heç kim qarışa bilməz. Fransa hakimiyyətinin Parisdə illərdir bitmək bilməyən "sarı jiletlilər"in etiraz aksiyalarına, pensiya yaşının artırılmasına vətəndaşların kəskin müqavimətinə, ərazisindəki etnik azlıqların problemlərinə diqqət yetirməsi daha faydalıdır.

*Səxavət HƏMİD, "Xalq qəzeti"*

***Ekspert rəyi***



**İlyas Hüseynov,**
**politoloq**

– Fransalı nazirin Azərbaycana qarşı həqiqətə uyğun olmayan fikirlər səsləndirməsi ilk dəfə deyil. O, beynəlxalq hüquqa açıq-aşkar hörmətsizlik edir. Nəzərə almaq lazımdır ki, Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. Azərbaycan isə beynəlxalq hüquqa uyğun olaraq, Laçın yolunda təhlükəsizliyin təmin olunması üçün sərhəd nəzarət-buraxılış məntəqəsi yaradıb. Belə olan təqdirdə Fransanın Azərbaycana diplomatik hücumları yolverilməzdir. Eyni zamanda, Parisin bu cür yanlış, təhrikçi və təxribatçı bəyanatları beynəlxalq ictimaiyyəti çaşdırır, onlarda səhv mövqe formalaşdırır. Sonra isə Fransanın böyük təsiri altında olan ölkələr, xüsusilə Benilüks ölkələri (Belçika, Niderland, Lüksemburq) Azərbaycana qarşı bu yanlış siyasəti davam etdirirlər.

Ketrin Kolonnanın açıq erməniprəst mövqeyi regional sülhə zərbə vurur və təhlükəsizlik mühitini sarsıdır. Nəzərə almaq lazımdır ki, hazırda Bakı ilə İrəvan arasında ABŞ-da effektiv danışıqlar aparılıb. Danışıqlardan sonra bu cür mövqe nümayiş etdirilməsi həm də sülh prosesini kökündən sarsıdır.

# Azərbaycan – Çin dostluğunun bugünkü səviyyəsi Heydər Əliyev siyasi müdrikliyinin nəticəsidir

**Bəri başdan deyim ki, magistr təhsili almaq üçün Çin Xalq Respublikasında yaşadığım illərdə bu ölkənin və xalqın tarixi, təhsili, mədəniyyəti, iqtisadiyyatı, siyasəti barədə az öyrənməmişəm. Ona görə də həmin istiqamətlər haqqında qələmə aldığım yazılar ölkəmizdə də, Çində də kiçik dairədə olsa belə, razılıqla qarşılanmışdır. İndi qələmə aldığım bu sətirlər də elə dost ölkədəki təəssüratlarımın bəzi məqamlarıdır.**

Həm Pekin Normal Universitetində oxuduğum illərdə, həm də bu dost ölkədəki Yanşan Universitetinin doktorantı olduğum dövrdə həmsöhbət olduğum professor və müəllimlərimdən Azərbaycan haqqında eşitdiyim fikirlərin önündə daim ulu öndərimizin adı olub. Bu Asiya nəhənginin ziyalı zümrəsi Azərbaycan deyəndə öncə “Heydər Əliyev” ad - soyadını yada salır. Çin dili haqqında məlumatlı olanlar yaxşı bilirlər ki, bizim yazılı nitqdə qabartmaq istədiyimiz xüsusi məqamları onlar şifahi dildə də ustalıqla reallaşdırırlar və “Heydər Əliyev” söz birləşməsi onların dilində olduqca gözəl səslənir.



Xatırladım ki, bu gün dünyanın ən qədim dövlətlərindən biri olan Çini də, ölkənin hər bir sakinini də indi ancaq iqtisadi imkanların artırılması üçün atılan addımlar maraqlandırır. Məhz həmin marağın nəticəsidir ki, ulu öndərimiz Heydər Əliyevin 1994-cü ilin martında Pekinə reallaşdırdığı rəsmi səfərinin təəssüratlarına bu gün də Çin ziyalılarının söhbətlərində rast gəlmək olur. Yeri gəlmişkən, gələn il bugünkü Azərbaycan – Çin dostluq və tərəfdaşlıq münasibətlərinin təməlini qoymuş həmin səfərin 30 illiyini qeyd edəcəyik. Çinli dostlarımın fikrincə, həmin fakt rəsmi Pekin üçün də xüsusi əhəmiyyəti olan hadisə kimi yaddaşlarda qalıb.

Ulu öndər səfər çərçivəsində Pekindəki İctimai Elmlər Akademiyasında çıxış edərkən demişdi ki, biz Çin Xalq Respublikasının Sədri cənab Tszyan Tszemin, Dövlət Şurasının Baş naziri cənab Li Pen ilə görüşlər və danışıqlar zamanı dövlətlərarası münasibətlərimizlə bağlı bir çox məsələləri müzakirə etmişik: “Biz Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının perspektivlərini müəyyənləşdirən mühüm sənədlər imzalamışıq. Çin Xalq Respublikasının Sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzalamışıq. Bu sənəd dostluq əlaqələrimizin gələcək inkişafının proqramıdır”.

Yeri gəlmişkən, ulu öndərimizin özü də Çin səfərindən qayıdarkən jurnalistlərə verdiyi müsahibədə onu tarixi hadisə adlandırmışdı: “Hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, “Böyük İpək yolu” və başqa faktların olduğunu xatırlayırıq. İndi isə... dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə Azərbaycan Respublikası üçün böyük hadisədir”.

Mən həmin “böyük siyasi hadisə”nin də, “gələcək inkişafın proqramı”nın da nəticələrini Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 17-də Davosda Çinin CGTN televiziya kanalına verdiyi müsahibədə də gördüm. Dövlət başçımız dedi ki, 30 il ərzində davam edən siyasi münasibətlər artıq bizim yaxşı tərəfdaş və bir-birinə etibar edən dostlar olduğumuzu nümayiş etdirir. Bizim beynəlxalq təsisatlar çərçivəsində çox yaxşı əməkdaşlığımız var. Biz həmişə bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz çox möhkəm siyasi platforma qurmuşuq.

Dövlət başçımız xatırlatdı ki, Orta Dəhlizlə bağlı Sədr Si Cinpinin təşəbbüslərini tam dəstəkləyirik. Həmçinin biz enerji, kənd təsərrüfatı və yüksək texnologiyalar sahələrində də əməkdaşlıq etməyə ümid edirik. İnformasiya texnologiyaları sektorunu təmsil edən bir çox Çin şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir. Beləliklə bizim, həqiqətən də çoxşaxəli münasibətlərimiz var.

Orta Dəhliz demişkən, xatırladım ki, mənim elmi işimin mövzusu Asiya və Avropanın iqtisadi imkanlarını qovuşduran məlum dəhlizlərin səmərəsinin və perspektivlərinin öyrənilməsinə, proqnozlaşdırılmasının təhlilinə həsr olunmuşdur. Yəni çox əhatəli bir mövzudur. Ona görə də Çində, Qazaxıstanda və Azərbaycanda çox mütəxəssislərlə görüşmüş, məsləhət və tövsiyələr almışam. Maraqlıdır ki, həmin insanların hamısı elmi söhbətə başlamazdan əvvəl səmimiyyətlə etiraf edirlər ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmin layihələrin bugününü görür, qiymətləndirir və onların icrasının Çin, Azərbaycan və ya hansısa bir neçə ölkə üçün deyil, ümumilikdə, Avrasiya məkanı üçün möhtəşəm perspektiv vəd etdiyini dəfələrlə söyləyirdi.

Bu zaman başqa bir faktı da xatırlatmaq zərurəti yaranır. Belə ki, artıq neçə illərdir istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu qitələrarası daşınmalar üçün geniş imkanlar açıb. Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut olan bu dəmir yolunun yaratdığı əlverişli şərait bir çox ölkələrin, xüsusilə Şərq ölkələrinin diqqətini cəlb edib. Mütəxəssislərin fikrincə, bu dəmir yolu xətti Asiya ilə Avropa arasında ən qısa və rahat yol olub yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox azaltmağa imkan verir. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın da Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Bu layihə həm də, Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla, bir sıra ölkələrin dəstəklədiyi “Bir kəmər, bir yol” iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib. Maraqlandığım çoxsaylı mənbələrdəki məlumatlardan hasil olan nəticə belədir ki, bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır.

Mən bu sətirləri çinli dostlarımdan birinin ifadəsi ilə tamamlamaqdan da məmnunam: “Aralarında otuz il yaş fərqi olsa da, deməliyəm ki, möhtərəm Si Cinpin kimi Heydər Əliyev də təkcə öz xalqı və dövləti üçün yox, Avrasiyanın bütün xalqları və dövlətləri naminə fəaliyyət göstərmişdir.”

*Sadiq QAÇAYEV,*
*Çinin Yanşan Universitetinin doktorantı, UNEC Biznes Məktəbinin müəllimi*

# Heydər Əliyev dərsləri

**Uzun illər Azərbaycan televiziyasında çalışmış Əməkdar jurnalist Faiq Sadıqov siyasi materialların efirə hazırlanması ilə məşğul olub. Prezidentlər Heydər Əliyev və İlham Əliyevi daxili və xarici səfərlərdə jurnalist kimi müşayiət edib, onların keçirdiyi tədbirlərdən, görüşlərdən videomaterialların efirə hazırlanmasının fəal redaktorlarından biri kimi tanınıb.**

Faiq Sadıqov hazırda Heydər Əliyev irsinin araşdırması ilə məşğuldur. Onun ulu öndərin çıxışlarından həm şahidi olduğu, həm də araşdırdığı maraqlı və ibrətamiz məqamların bəzilərini oxuculara təqdim edirik.



## Mənə ləqəb qoymuşdular: “MİXAYLO”

Heydər Əliyev 1969-cu ildə ilk dəfə hakimiyyətə gələrkən ona "Mixaylo" ləqəbi verildiyini o dövrün adamları yaxşı xatırlayırlar. Ulu öndər 1997-ci ildə çıxışlarının birində nə üçün ona bu ləqəbin verildiyini belə izah edib:

– 1969-cu ilin iyul ayında mən Azərbaycana rəhbər seçilərkən respublikada hərc-mərclik idi. Mən isə ondan öncə işlədiyim vəzifədə bunların çoxunu yaxşı bilirdim. O vaxtlar çoxları məni tanımırdı, çünki işim elə idi ki, ictimaiyyətdə o qədər də məşhur adam deyildim. Fəallar tanıyırdı, amma geniş kütlələr o qədər tanımırdı. Yəni mən orada-burada çıxış etmirdim, televiziyada göstərmirdilər. Ona görə də mən bir müddət – təxminən bir ay bundan istifadə etdim, şəxsən özüm bu işlərlə məşğul oldum. Xatirinizdədir, o vaxt adamlar mənə bir ləqəb də qoymuşdular: “Mixaylo”. Bir neçə əməliyyatı respublikanın başçısı kimi özüm keçirəndən sonra mənə dedilər ki, haradansa fotoşəkillərimi tapıblar, çoxaldırlar, satırlar və çox adamlara verirlər ki, məni görəndə tanısınlar. Çünki bəzən mağazalara gedirdim, nöqsanları aşkar edirdim, onlar tanımırdılar mən kiməm, ona görə də özlərini çox kobud aparırdılar və sonra da çox böyük bəlaya düşürdülər.

O vaxt, 28 il bundan öncə, mən bir eksperiment keçirdim. O vaxt bizim tanınmayan işçilərimiz, məxfi işçilər var idi. Onların bir-ikisinə tapşırdım ki, gedin Sabirabada, bir avtomaşın qarpız alın, gətirin bazara satmağa. Görək yolda bunu neçə yerdə saxlayacaqlar, nə qədər rüşvət alacaqlar. Gətirdilər, onlara da mən tapşırmışdım ki, gizli foto çəksinlər. O vaxt televiziya, yəni bu video yox idi, fotoaparatla adamları gizli çəkirdilər. Sabirabaddan buraya gələnə qədər 7-8 yerdə onları saxlamışdılar – nə bilim, polis işçisidir, yol işçisidir, nədir. O vaxt polis deyildi, milis idi. Hamısı da rüşvət almışdılar. Bu şəkilləri gətirdilər, mən o vaxt daxili işlər nazirini çağırdım, Şəkilləri qoydum stolun üstünə və tələb etdim ki, o adamlar cəzalandırılsın. Xatirinizdədir, o vaxt mən 5-6 aydan sonra Daxili İşlər Nazirliyinin bütün rəhbərliyini kənarlaşdırdım. Hamısını – naziri də, müavinləri də işdən çıxardım.

## "Harada görünüb ki, xalqın başında dəlləklik öyrənəsiniz?"

Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəldiyi zaman qarşılaşdığı çətinlikləri aradan qaldırmağın heç də asan olmadığını onun sonrakı çıxışlarında, müsahibələrində tam aydınlığı ilə görmək mümkündür. Ulu öndər o dövrün hadisələrinin mənzərəsini ibrətamiz və maraqlı faktlar əsasında təsvir edirdi. Bu baxımdan onun 1993-cü ilin avqustunda rus yazıçısı Aleksandr Proxanova verdiyi müsabidən bir parçaya diqqət yetirək.

**Heydər Əliyev:** Fevral ayında mən Elçibəylə görüşdüm. Səkkiz saat danışdıq. Mən ona dedim: "Belə siyasət uğursuzluğa məhkumdur!". O, çox düşüncəsiz cavab verdi: "Biz idarə etməyi öyrənirik. Qoy təcrübəsizlər təcrübə toplasınlar. Toplamazlar, biz onları işdən çıxarar və yerlərinə başqalarını qoyarıq". Dedim: "Harada görünüb ki, xalqın başında dəlləklik öyrənəsiniz. Onun üzərində eksperimentlər aparırsınız?" Bu, Gəncədə birbaşa cinayətlə nəticələndi, qanla qurtardı. Buna görə də xalq onları rədd etdi!..

**Aleksandr Proxanov:** - Bilirəm ki, Naxçıvanda, balaca bir respublikada siz qayda-qanun yaratmağa, layiqli həyat səviyyəsini qoruyub saxlamağa müvəffəq oldunuz. Sizin üçün, əgər belə demək caizsə, "Naxçıvana sürgünlük" nə demək idi?

**Heydər Əliyev:** - Xalq Cəbhəsinin yeni peyda olmuş başçılarından biri televiziyaya çıxıb, lovğa-lovğa bildirmişdi: "Əgər lazım gələrsə, mən Naxçıvana gedib Əliyevin başına güllə çaxaram!" Mənə qarşı iki dəfə qəsd təşkil etdilər, iki dəfə məni öldürmək istədilər. Amma oxları daşa dəydi, niyyətləri baş tutmadı. Onlar Əliyevə divan tutmaq üçün Naxçıvanı blokadaya aldırdılar. Bizi ərzaqdan, neftdən məhrum etdilər. Elektrik enerjisini büsbütün kəsdilər. Bizdə soyuqlar və aclıq başlandı. Südəmər körpələr xəstəxanalarda soyuqdan donub ölürdülər. Camaat bağ-bağatı qırıb od qalayırdı. Ev-eşiyi isitmək üçün meyvə ağaclarının 70 faizini kəsib doğradılar. Nə qədər meşə qırıldı. Lakin mən də sağ qaldım, xalq da.

## "Qabilə dedim ki, sən əsl kişisən!"

Heydər Əliyev insanları əməyinə, əqidəsinə, əməlinə, fəaliyyətinə görə seçməkdə fenomenal şəxsiyyət idi. O, adamların xarakterini və psixologiyasını bütün incəlikləri ilə çox tez müəyyənləşdirib qiymətləndirməyi məharətlə bacarırdı. 1997-ci ilə Xalq şairi Qabilin 70 illik yubileyindəki çıxışında Heydər Əliyev çoxlarının Qabildə müşahidə edə bilmədiyi şəxsi nümunəni belə açıqlamışdı:

– Yubiley gecəsində çıxış edənlərdən biri dedi ki, Qabil siyasətlə məşğul olmayıbdır. Bu fikir doğru deyil. Qabilin Yanvar faciəsinə həsr olunmuş şeirinin özü siyasətdir. Yaxud, yadımdadır, mən Naxçıvanda olanda Qabil burada qəzetdə çıxış etmişdi və Mütəllibova 24 sual vermişdi ki, o bu suallara cavab versin. Mən o vaxt bu yazını oxudum, fikirləşdim ki, görəsən, Mütəllibov bu suallara cavab verəcək, yoxsa yox? O, həmin suallara cavab verə bilmədi. Qabilin bu sualları verməsinin özü bir vətəndaşlıq şücaəti, mövqeyi idi. Ona görə də Qabil heç də siyasətdən kənarda qalmayıb, öz fikrini deyibdir.

...Qabil öz çıxışında Mədinə Gülgünün vəfatı ilə əlaqədar Aktyor evində yas mərasimindəki görüşümüzü xatırlatdı. Doğrudan da, o vaxt mən Qabilə dedim ki, sən əsl kişisən. Bu, elə-belə söz deyil. Bu mənim əvvəlki dövrdə, qurultaylarda, müxtəlif tədbirlərdə yazıçılarla görüşlərimdə müşahidələrimin nəticəsi idi və beynimdə Qabil haqqında toplanmış bir fikir idi. O fikri də mən uzun müddətli ayrılıqdan sonra oradakı görüşümüzdə bildirdim. Yəni bu adi bir söz deyildi. Bilirsiniz ki, insanlar arasında "sən kişisən, mən də kişiyəm" sözləri çox işlənir. Mənim ağzımdan belə şey çıxmaz. Amma o vaxt çıxdı ki,doğrudan da onun yeri idi.

## "Sənin ixtiyarın yoxdur bunu etməyə!"

1997-ci ilin oktyabrında yazıçıların X qurultayı ərəfəsində Heydər Əliyevin gənc nəsildən olan yazıçı və şairlərin bir qrupu ilə görüşündə tənqidçi Vaqif Yusifli ilə maraqlı bir dialoq olur.

**Vaqif Yusifli (tənqidçi) :** 20-ci illərin axırlarını, 30-cu illərin əvvəllərini xatırlamaq kifayətdir. Bu illərdə ədəbiyyata yeni nəsil – Azərbaycan sovet ədəbiyyatının yaradıcıları hesab olunacaq gənclər gəlmişdilər: Şairlərdən Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Məmməd Rahim, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, nasirlərdən Mirzə İbrahimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Əbülhəsən, Ənvər Məmmədxanlı və başqaları.

**Heydər Əliyev:** Rəsul Rzanı yaddan çıxartdın…

**Vaqif Yusifli:** Üzr istəyirəm, Rəsul Rza.

**Anar:** Onu mən tapşırmışam, deməsin.

**Heydər Əliyev:** Niyə? Sənin ixtiyarın yoxdur bunu etməyə!

## “Onda gərək ATƏT-in Minsk qrupunu “ərə verək”

2001-ci il noyabrın 4-də Heydər Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə növbəti görüşü keçirilir. Həmsədrlərin saysız-hesabsız və tamamilə səmərəsiz səfərləri, təbii olaraq, Heydər Əliyevi artıq əsəbləşdirirdi. Lakin heç vaxt təmkinini pozmayan Prezident budəfəki söhbət zamanı həmsədrlərin fəaliyyətini ironiya ilə belə qiymətləndirdi.

Mən dünən fikirləşdim ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin artıq 13 yaşı var. ATƏT-in Minsk qrupunun 9 yaşı var. Amma görün, neçə illər keçibdir, məsələ həll olunmayıbdır. Əgər bir az daləngisək, ATƏT-in Minsk qrupu artıq böyük oğlan olacaq, gərək onu evləndirək. Yaxud ola bilər, qız olsun, onda gərək Minsk qrupunu ərə verək.

## Zəngəzur Dəhlizi barədə razılıq niyə pozuldu?

"Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır" – deyən Heydər Əliyev Zəngəzur dəhlizinin açılmaşında həmişə israrlı olub. Qarabağ münaqişəsinin həlli ilə bağlı Emənistanla aparılan danışıqlarda hətta dəhlizin açılması barədə razılığın əldə edilməsinə də nail olmuşdu. Ulu öndər bu barədə açıqlamanı ilk dəfə 2002-ci ilin iyununda verib.

Parisdə Prezident Jak Şirakla bu məsələlərlə əlaqədar görüş keçirərkən, bilirsiniz ki, öncə prezident Jak Şirak Ermənistan prezidenti Köçəryanla görüşmüş, sonra məni Parisə dəvət etmişdi, ondan sonra isə hər ikimizi Parisə dəvət etmişdi, çox səmərəli danışıqlar apardıq. Təbiidir ki, mənim o danışıqların məzmununu açmaq məqsədim yoxdur. Buna ehtiyac da yoxdur və o vaxt biz bəyan etmişdik ki, danışıqların məzmunu açılmamalıdır.

Amma son vaxtlar Ermənistan tərəfi – ya xarici işlər naziri, yaxud da Ermənistan prezidenti Paris görüşlərindən möhtəkirlik məqsədi ilə müəyyən qədər sui-istifadə edirlər. Sonralar da bir-iki dəfə bəyanat veriblər ki, guya biz yenidən Paris prinsipləri əsasında danışıqlar aparmağa hazırıq. Bu məni təəccübləndirir. Çünki Paris prinsiplərini ondan dərhal sonra Ki-Uestdə pozan Ermənistan tərəfi oldu. Bu prinsiplərin bir necə aspekti vardı. Onlardan birı o idi ki, Ermənistan Mehri rayonundan Azərbaycan ilə Naxçıvan arasında dəhliz verir və bunun əvəzində Azərbaycan Laçın rayonundan Ermənistana Dağlıq Qarabağla əlaqə yaratmaq üçün dəhliz verir.

Bu məsələ prezidentlər Şirak, Köçəryan, Əliyev – üçümüz tərəfindən birlikdə çox geniş müzakirə olundu. Ümumi fikir belə oldu ki, Azərbaycan, Naxçıvan üçün Mehri rayonundan verilən dəhliz Azərbaycanın suveren torpağı olacaqdır, eyni suveren dəhlizi Azərbaycan Laçın rayonundan Ermənistana Dağlıq Qarabağ üçün verəcəkdir. Deyə bilərəm ki, prezident Jak Şirak çox, bir neçə dəfə bu məsələ üzərində dayandı ki, bu dəhlizlər eyni statusa malik olacaqdır. Mehridən keçən dəhliz necə olacaqdırsa, Laçından keçən dəhliz də o cür olacaqdır. Ancaq bunu, eyni statusa malik olan dəhlizlərin – Mehri rayonundan Azərbaycan üçün, Laçın rayonundan Ermənistan üçün dəhliz verilməsini Ermənistan tərəfi Ki-Uestdə pozdu. Bu da bütün sonrakı danışıqların pozulmasına gətirib çıxardı.

Mən bunu birinci dəfədir açıqlayıram, burada mətbuat da var. Amma məcburam, çünki Ermənistan tərəfi bunu son vaxtlar dünya ictimaiyyətinə tamamilə yanlış şəkildə bildirir. Prezident Şirakın katibi vardı, yazırdı. O yazılarda bunların hamısı var. Mən bununla bu mövzunu bağlamaq istəyirəm. Əgər Parisdə əldə edilmiş bu razılıq bərpa olunursa, biz Paris prinsipləri əsasında danışıqları davam etdirməyə hazırıq. Amma Ermənistan Mehridən suveren dəhliz vermək istəmir. Yəni əvvəlki sözündən geri çəkilir. Azərbaycandan isə suveren dəhliz istəyir…

## "Ad günüm olduğunu unutmuşam"

2001-ci ilin mayında keçirilən növbəti görüşdə ATƏT-in Minsk qrupu və onları müşayiət edən nümayəndə heyətinin üzvləri Heydər Əliyevi ad günü münasibətilə təbrik ediblər. Cavabında isə Heydər belə deyib:

– Ad günüm münasibətilə təbriklərə görə təşəkkür etmək istəyirəm. Lakin mənim üçün ən həqiqi ad günü torpaqlarımızın azad ediləcəyi gün, sülh müqaviləsini imzalayacağımız gün olacaqdır. Ona görə də bu məsələ ilə məşğul olduğum bütün ötən illər ərzində mənim üçün bayram da bayram olmayıbdır, xüsusən də ad günü. Ümumiyyətlə, mən ad günüm olduğunu unutmuşam, çünki beynimdə, fikrimdə ancaq bu problem dolaşır.

**(ardı var)**

*Təqdim etdi:*
*Faiq SADIQOV,*
*Əməkdar jurnalist*

# Müdriklik, qətiyyət və zəngin dövlətçilik təcrübəsi

**Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz məktəbdir. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.**

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyulmuş, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başlamış, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atılmış, hər il yüzlərlə gənc müxtəlif peşələrə, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərilmiş, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkilmişlər.

Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən ümummilli lider Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" – deyərək dövlət idarəçiliyində qanunun əliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirmiş, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirirmişdir.

20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, üçrəngli milli bayrağımız ilk dəfə Naxçıvanda Dövlət bayrağı kimi qəbul olundu, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsis edildi, 20 Yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri muxtar respublikadan çıxarıldı.

Lakin 1991 -ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz ilk illərdə onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi, idarəçilik yox dərəcəsində idi, hər yerdə xaos, anarxiya hökm sürürdü.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

Əsas Qanunun qəbulu ölkədə bütün sahələrdə, o cümlədən hüquqi islahatların hərtərəfli və kompleks həyata keçirilməsinə rəvac verdi və bu məqsədlə müxtəlif komissiyalar yaradıldı. Hüquq sisteminə müstəsna əhəmiyyət verən ümummilli lider Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək, islahatların qısa müddətdə vs mütəşəkkil aparılmasını təmin etdi.

Ulu öndər hüquqi islahatlarla bağlı deyirdi: "Bu islahatları ona görə aparmırıq ki, kimsə bizə deyir, kimsə bunu bizdən tələb edir. Biz özümüz anlamalıyıq ki, "hüquqi, demokratik dövlət qururuq". Bunu təmin etmək də qanunlarla ola bilər. Gərgin fəaliyyət nəticəsində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edildi. Bu qanunvericilik aktları beynəlxalq səviyyəli mütəxəssislər tərəfindən ekspertizadan keçirilməklə yüksək dəyərləndirildi.

Dahi rəhbər hər an, hər şəraitdə qanunun aliliyini qoruyub saxlamağa çağırırdı: "Qanun hamı üçün qanundur. Həm adi vətəndaş üçün, həm hakimiyyət məmuru üçün, həm də dövlət məmuru üçün". İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ümummilli liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı isə insan hüquqlarının təminatı sahəsində yeni mərhələnin əsasını qoydu.

1999-cu ildə ümummilli lider tərəfindən "Ədalət mühakiməsinin rəsmi embleminin təsviri", "Hakimlərin xüsusi geyimi haqqında" və "Hakimlərin xidməti vəsiqəsi haqqında" əsasnamələr təsdiq edildi. İnsan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı.

Məhkəmə hakimiyyətini yaratmaq üçün ölkədə köklü məhkəmə-hüquq islahatlarının aparılmasının zəruriliyini nəzərə alan ümummilli liderin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul olundu və məhkəmə islahatlarına dair proqram xarakterli fərman imzalandı. Qanun əsasında məhkəmə-hüquq sistemində əsaslı dəyişikliklər həyata keçirildi, ədalət mühakiməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədilə 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlandı. Üçpilləli yeni məhkəmə sisteminin fəaliyyətə başlaması hər bir şəxsin hüquq və azadlıqlarının məhkəmədə müdafiə edilməsinə, qəbul edilmiş məhkəmə qərarlarından şikayət etmək hüququna təminat verməklə, işlərə ilk olaraq birinci instansiya məhkəməsində bundan sonra qəbul edilmiş qərarların apelyasiya qaydasında, daha sonra həmin qərarların kassasiya qaydasında yenidən yoxlanılmasına imkan verildi. Məhz həmin vaxtdan Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə seçildi və nəticədə hakim korpusu 60 faiz təzələndi. Görülmüş tədbirlər əhali arasında məhkəmələrə etibarı artdı. Artıq insanlar pozulmuş hüquqların müdafiəsi üçün digər orqanlara deyil, məhz məhkəmələrə müraciət edirlər.

Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı məhkəmə sisteminin inkişafı baxımından mühüm yol xəritəsidir. Bu sənəd məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasının və məhkəmə-hüquq islahatlarının davamlılığının real göstəricisidir.

Böyük qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq ulu öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha əzmkarlıqla çalışmalıyıq.

***Hümbət SƏLİMOV,***
***Balakən Rayon Məhkəməsinin sədri***



**Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsi ulu öndərin bütün sahələrdə qazandığı uğurların təhlilində və gənc nəslə çatdırılmasında əhəmiyyətli rol oynayır. Sənəddə də qeyd edildiyi kimi, ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib və məharətlə həyata keçirib.**

# Demokratik dövlət quruculuğunun banisi

1993-cü ilin ikinci yarısında siyasi hakimiyyətə qaydışından sonra Azərbaycan faciələrdən xilas oldu. Ulu öndər sabitliyi və normal investisiya mühitinin mövcudluğunu hər bir sahənin inkişafında əsas faktor kimi önə çəkdi. İlk gündən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu qarşıya əsas hədəf kimi qoyaraq bu istiqamətdə mühüm addımlar atdı. O dövrdə yenicə müstəqillik əldə etmiş bir dövlətin inkişafında mükəmməl qanunvericlik bazasının yaradılması, qanunun aliliyinin təmin edilməsi mühüm şərt idi. "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir"- deyən Heydər Əliyevin rəhbərliyi ilə zaman keçdikcə bu sahədə böyük uğurlar qazanıldı.

Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin formalaşması da ümummilli lider Heydər Əliyevin xüsusi diqqət mərkəzində olub. Konstitusiyanın qəbulu ilə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolunun bütün atributlarını, hüquqi dövlətin prinsip və vəzifələrinə uyğun olaraq qanunverici və icra hakimiyyəti ilə eyni statusu qazandı. Ulu öndərin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul edildi. Qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair fərman imzalandı. Ümummilli liderimizin rəhbərliyi ilə aparılan əsaslı məhkəmə-hüquq islahatları nəticəsində yeni, üçpilləli müstəqil məhkəmə sistemi formalaşdırıldı. 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həyata keçirmək vəzifələrini yerinə yetirən Məhkəmə-Hüquq Şurası təsis olundu.

Qanunçuluğun təmin edilməsi, insan hüquq və azadlıqlarının qorunması, ədalətlilik, humanizm və insanpərvərlik də ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyasının mühüm tərkib hissələrindən biri idi. Bu dəyərlər ulu öndərin hələ sovet hakimiyyəti dövründə respublikaya başçılıq edərkən, həmçinin keçmiş İttifaqın ali rəhbərliyində təmsil olunarkən siyasi və idarəçilik fəaliyyətində önəmli yer tutub. Eyni zamanda müstəqillik illərində milli dövlət quruculuğunun aparıcı istiqamətlərində öz ifadəsini tapıb. Daim qanunun aliliyi prinsipinə əsaslanan müdrik siyasi xadim müstəqil dövlət quruculuğu dövründə çevik və səmərəli hüquq sistemi formalaşdırılarkən ədliyyə orqanlarının roluna xüsusi əhəmiyyət verib, onun davamlı islahatlar yolu ilə təkmilləşdirilməsini diqqətdə saxlayıb. Hələ sovet hakimiyyəti dövründə, məhz, ulu öndərin təşəbbüsü ilə təşkilati cəhətdən yenidən qurulan və zəngin inkişaf yolu keçən Azərbaycan ədliyyəsinin səlahiyyətləri dövlət müstəqilliyinin bərpasından sonra daha da genişlənib, onun cəmiyyətdəki rolu və nüfuzu artıb, peşəkar kadr potensialı gücləndirilib.

Postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətinin məhkəməyə verilməsi, həmçinin Şərqdə ilk dəfə ölüm cəzasının ləğvi ulu öndərin rəhbərliyi ilə Azərbaycan ədliyyəsində aparılan islahatların mühüm nəticələrindən olub. Ölüm cəzasının ləğvi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisinə ünvanlandığı tarixi müraciətdə müdrik və uzaqgörən rəhbər insan həyatının ən yüksək dəyər, yaşamaq hüququnun hər bir insanın təbii və ayrılmaz hüququ olduğunu qeyd edərək, bu cəzanın tətbiqini insan ləyaqətinə, bütövlükdə, insan hüquqları ideyasına zidd olan qeyri-insani və amansız tədbir kimi qiymətləndirir. Ölüm cəzasının ləğvinin tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addım və hüquq sistemində islahatların mühüm mərhələsi olacağına əminliyini bildirirdi. Ulu öndər bununla bəşəri humanizmə və beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirdi.

Amnistiya və əfvetmə institutunun geniş tətbiqi ulu öndər Heydər Əliyevin ədliyyə orqanları üçün də başlıca meyar kimi müəyyənləşdirdiyi humanizmin mühüm təzahürlərindəndir. Məhz onun təşəbbüsü ilə 1995-2003-cü illərdə qəbul olunmuş 7 amnistiya aktı 77 mindən çox insana şamil edilib, 32 əfv fərmanı imzalanaraq 3100-dən çox məhkum bağışlanıb.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş humanizm siyasətini möhtərəm Prezidentimiz İlham Əliyev dövlət idarəçiliyinin əsas prinsiplərindən biri kimi qətiyyətlə davam etdirir. Ölkə rəhbərinin əfv fərmanları, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilən Amnistiya aktları minlərlə insana bu humanizmdən bəhrələnərək cəzadan vaxtından əvvəl azad edilmək, cəmiyyətə reinteqrasiya olunmaq imkanı verib. İnsan hüquqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamıza üç dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi, 18 iyunun ölkəmizdə İnsan Hüquqları Günü təsis edilməsi və sair kimi mühüm addımlar vətəndaş amilinin önəmini açıqlayır.

Hakimiyyətin hər üç qolunda–icra, qanunvericilik və məhkəmə-hüquq sistemində təkmil islahatların həyata keçirilməsi ölkəmizin hərtərəfli inkişafına geniş imkanlar yaradır. Dövlət başçımız İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı da deyilənlərin təsdiqidir. Sənəddə də qeyd edildiyi kimi, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.

***Rəşad QOŞQARLI,***
***Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi***

# Kövrək bir xatirə

**Mən Tofiq müəllimi həm şöhrətli türkoloq, həm istedadlı şair, həm də nəcib və xeyirxah insan kimi tanıyıram. Hər görüşümüzdə də onun dəmir məntiqə, dərin zəkaya, həssas qəlbə, prinsipial xarakterə sahib olduğunu hiss edirəm. Növbəti görüşümüzdə onun nə qədər incə, kövrək, qədirbilən insan olduğunu bir daha duydum…**

Ziyalıların, türkoloqların məclisində söhbət ulu öndər Heydər Əliyevdən düşəndə professor Tofiq Məlikli də ümummilli liderin böyük tarixi şəxsiyyət olduğunu vurğuladı, xidmətlərini qeyd etdi, sonra bir az fasilə verib davam etdi:

– Heydər Əliyevdə dəyər verdiyim ən böyük insani keyfiyyətlərdən biri onun ailəsinə, övladlarına bağlılığı, sadiqliyi idi. Yaxşı xatırlayıram. 1985-ci il idi. Hamının nəcib, xeyirxah və vəfalı insan kimi tanıyıb hörmət etdiyi Zərifə xanım vəfat etmişdi. Vida mərasimi Moskvada Alimlər evində keçirilirdi. Şeyxülislam Hacı Allahşükür Paşazadə, Elman Araslı və digərləri birlikdə mərasimdə mən də iştirak edirdim. İnsan axını bitib-tükənmirdi. Hər kəs kədərli, hüznlü, göz yaşı içində idi. Bir müddət sonra Zərifə xanımla son görüş üçün doğmalarından başqa hamının zaldan çıxması xahiş edildi. Ailə üzvləri ilə birlikdə biz də qaldıq. Qızları Sevil xanım heç sakitləşmək bilmirdi. O zaman bığ yeri yenicə tərləyən İlham Əliyevin kədərli siması indi də gözümün qabağındadır. Heydər Əliyev isə..

Bu zaman Tofiq Məliklinin boğazı qurudu, gözləri doldu, qəhərləndi. Bir müddət susdu, nəmli gözlərini məclisdəkilərdən gizlətməyə çalışdı.Bacarmadı. Onun bu halı hər kəsi təsirləndirmişdi. Nəhayət, toxtayıb davam etdi:

– O səhnə – Heydər Əliyevin hıçqırtı ilə ağlaması indi də qulaqlarımdadır. İlahi, o necə bir mənzərə idi. O vaxta kimi kim desə idi ki, Heydər Əliyev ağlaya bilər, inanmazdım. Amma bunu öz gözlərimlə gördüm, bildim ki, o həm də sadiq, sədaqətli, bütün varlığı ilə Zərifə xanımı sevən bir incə qəlbə sahib insan idi…

...Zərifə xanımın cənazəsi böyük izdihamın müşayiəti ilə "Novo- Deviçiya" qəbiristanlığına gətirildi. Dəfn mərasimi də Zərifə xanıma layiq təşkil olunmuşdu. Hamı dağılandan sonra Elman Araslı üzünü Şeyxə tutdu:

– Biz üçümüz qalaq, siz bir "Yasin" oxuyun, biz də dua edək sonra gedərik, – dedi. Beləliklə, üçümüz qaldıq, Şeyx "Yasin" surəsini oxudu və biz qəbiristanlıqdan çıxdıq.

Tofiq müəllimin bu kövrək xatirəsi məclisdə iştirak edən tanınmış oftalmoloq-cərrah, istedadlı şair Paşa Qəlbinuru da təsirləndirmişdi. O da söhbətə qoşuldu. Zərifə xanımın da nə qədər qədirbilən, həssas, xeyirxah insan olduğunu eşitdiyi, şahidi olduğu hadisələri danışmaqla xatırladı. Türkoloqların növbəti məclisi bu iki böyük insanın xatirəsinin ehtiramla yad edilməsinə həsr olundu.

***Abid TAHİRLİ,***
***filologiya elmləri doktoru***

# Əməlləri ilə xalqın qəlbində əbədiləşən lider



Xalqımızın böyük oğlu, dahi rəhbər, dünya şöhrətli siyasətçi Heydər Əliyevin yubileyi ilə bağlı paytaxtda və bölgələrdə, ölkənin müəssisə və təşkilatlarında tədbirlər davam etdirilir.

### Xarici diplomatların Naxçıvan ziyarəti

Ölkəmizdə akkreditə olunmuş, iqamətgahı Bakıda və Ankarada yerləşən diplomatik korpusun nümayəndələri, eləcə də hərbi attaşelər müasir müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində Naxçıvan şəhərində səfərdədirlər. Ümumilikdə 80-ə yaxın ölkədən və 23 təşkilatdan 140-a yaxın diplomatın və hərbi attaşenin iştirak etdiyi səfər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etməklə başlayıb. Sonra Heydər Əliyev Muzeyinə gələn qonaqlar ulu öndərin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar. Onun hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi barədə qonaqlara ətraflı məlumat verilib.




### Onun üçün insan kapitalı prioritet idi

Bakıda "Ümummilli lider Heydər Əliyevin xarici siyasət prioritetləri" adlı konfrans keçirilib. Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov qeyd edib ki, uğurlu xarici siyasət ölkəmizin beynəlxalq aləmdə imicini və nüfuzunu müəyyən edir. "İkinci Qarabağ müharibəsi başa çatdıqdan və ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən sonra Azərbaycan yeni inkişaf dövrünə qədəm qoyub. Prioritet istiqamətlərdən biri inklüziv inkişafa nail olmaqdır. Buna əsaslanaraq onu da əlavə etmək olar ki, Heydər Əliyev insan kapitalının inkişafına, onun ölkə iqtisadiyyatına töhfəsinə xüsusi önəm verirdi", - deyə U.Ələkbərov çıxışında vurğulayıb.

### Gənclərə örnək ömür dastanı

Paytaxtın 132-134 nömrəli təhsil kompleksində "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev – 100: Böyük ömrün dastanı" layihəsi çərçivəsində gənclərlə görüş keçirilib. Birlikdən bildiriblər ki, media nümayəndələrinin də qatıldığı tədbir ulu öndər Heydər Əliyev, habelə Vətənimizin azadlığı və suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb. "İrəli" İB-nin sədri Şahin Rəhmanlı ulu öndər Heydər Əliyevin həyatının bütün mərhələlərində daim Azərbaycanın tərəqqisi naminə çalışdığı, eləcə də əsasını qoyduğu dövlət siyasətinin hazırda Prezident İlham Əliyev tərəfin-



dən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

### Filarmoniyada xatirə konserti

Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Dövlət Akademik Filarmoniyasında klassik musiqi gecəsi keçirilib. Meriyadan verilən məlumata görə, tədbirdə Bakı Şəhər İH-nın başçısı Eldar Əzizov, bir sıra dövlət qurumlarının rəhbərləri, Milli Məclisin deputatları, paytaxt ictimaiyyətinin nümayəndələri, ali və orta təhsil müəs-



sisələrinin, veteran və gənclər təşkilatının nümayəndələri, elm və mədəniyyət xadimləri və çoxsaylı qonaqlar iştirak ediblər.

### AHİK 65 min ailəyə yubiley sevinci bəxş etdi

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə respublikanın rayonlarında 4500 aztəminatlı ailə, o cümlədən şəhid və qazi ailələri üçün ərzaqla dolu avtomobil karvanı yola salınıb. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında yaşayan həmin kateqoriyadan olan 2500 ailəyə də ərzaq payı göndərilib. AHİK-dən başqa, sahə həmkarlar ittifaqları da bu ərəfədə bütün bölgələr üzrə qeyd edilən kateqoriyadan olan ailələrə ərzaq yardımları göstərirlər. Qeyd edək ki, bununla da sovqat göndərilən ailələrin ümumi sayı 65 minə çatıb.

### Ultramarafona yekun vurulub

Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş Ağstafa-Bakı marşrutu ilə ultramarafon yürüşünə yekun vurulub. Ağstafanın Vurğun qəsəbəsinin sakini Ağa Əliyev yürüşə mayın 1-də Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önündən başlayıb. İlk gündə Gəncəyə kimi 96 kilometrlik məsafə qət edən marafonçu ardınca 70 kilometrlik məsafəni keçərək Gəncədən Yevlaxa gəlib. Növbəti dayanma məntəqələri Kürdəmir və Hacıqabul rayonları olub. Son mərhələyə Hacıqabuldan start verən yarış iştirakçısı 118 kilometr məsafəni qət edərək finişə çatıb. Ağa Əliyev Azərbaycanda 5 gün ərzində ən uzaq məsafəni qətetmə rekorduna sahib çıxıb.

### Yubileyə həsr olunmuş seminar

Milli Azərbaycan Tarixi Muzeyində Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Ümummilli lider Heydər Əliyevin siyasi konsepsiyasında Azərbaycan gəncliyi" mövzusunda seminar təşkil olunub. Tədbir Tarix Muzeyinin və Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin birgə təşkilatçılığı ilə keçirilib. Seminarda muzeyin əməkdaşları, BDU-nun Tarix fakültəsinin müəllim və tələbələri, eləcə də hərbi təhsil müəssisəsinin kursantları iştirak ediblər.

### Səhiyyə ocağında beynəlxalq konfrans

Ümummilli liderin doğum günü ölkəmizin hər yerində olduğu kimi, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda da qeyd edilib. Bu münasibətlə institutda beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransın işində tanınmış yerli mütəxəssislərlə bərabər müxtəlif ölkələrdən - ABŞ, Türkiyə, Ukrayna, Rusiya, Özbəkistan, Çexiya, Avstriya, İtaliyadan olan mütəxəssislər əyani və onlayn rejimində iştirak ediblər. Konfransda çıxış edən Səhiyyə nazirinin müavini Nadir Zeynalov Heydər Əliyevin keçdiyi mənalı və şərəfli həyat yoluna nəzər salıb.

İnstitutun rektoru, professor Nazim Qasımov çıxışında ulu öndərin tibb kadrlarının hazırlanmasında, diplomdansonrakı təhsilin inkişaf etdirilməsində, bilavasitə bu müəssisənin inkişafındakı əvəzolunmaz rolunu qeyd edib.

*Hazırladı:*
***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

**Ümummilli lider Heydər Əliyevin və oftalmoloq-alimZərifə Əliyevanın 100 illik yubileyləri ilə bağlı Milli Oftalmologiya Mərkəzi (MOM) və TƏBIB-in tabeliyində olan Şamaxı Rayon Mərkəzi Xəstəxanasının birgə təşkilatçılığı ilə tibbi aksiya və konfrans keçirilib.**

Tədbirdə Milli Oftalmologiya Mərkəzinin elmi-məlumat, təşkilati- metodik bölməsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva "Azərbaycanın ictimai-siyasi həyatında iz buraxmış, görkəmli alim Zərifə Əliyevanın həyat yolu barəsində", "Şamaxı Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi şəxsin direktoru Emin Hüseyn "Zərifə Əliyeva və onun tibbə - oftalmologiya sahəsinə, gətirdiyi yeniliklər göz xəstəliklərində uğurlu müalicənin tətbiqi sayəsində respublikada traxoma xəstəliyinin aradan qaldırılması və uğurlu tədqiqatları", Şamaxı RMX-nın ilkin səhiyyə xidmətinin şöbə müdiri Leyla Bəkirova "Zərifə xanım Əliyevanın fəaliyyətindən, Azərbaycanda oftalmologiya elminin inkişafına verdiyi töhfələr" mövzularında məruzələrlə çıxış ediblər.

# Şamaxıda tibbi aksiya



Tibbi aksiyada şəhid ailələri, müharibə veteranları, aztəminatlı ailələrdən olan şəxslər iştirak ediblər. Müasir avadanlıqlar vasitəsilə pasientlərin kompleks şəkildə göz müayinəsi aparılıb, görmə itiliyi, göz təzyiqi, göz dibi xəstəlikləri yoxlanılıb və müvafiq müalicələr təyin olunub.

Aksiya çərçivəsində 68 nəfər müayinə olunub. Onlarda refraksiya patologiyası aşkar olunub. Müayinələr əsasında retinopatiya, presbiopiya, miopik astiqmatizm, allergik konyunktivit, quru göz sindromu və s. diaqnozlar aşkar olunub.

Müayinələr Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri, Günay Rüstəmbəyova, Aynur Nəbiyeva tərəfindən həyata keçirilib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

*Ağcabədidə yubiley tədbirləri*

# O, gənclərdə idmana sevgi aşılayırdı




**Ağcabədidə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş " Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı konfrans keçirilib. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ulu öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Sonra Heydər Əliyevin həyat yolunu əks etdirən videoçarx nümayiş etdirilib. Tədbirdə Ağcabədi regional "ASAN xidmət" mərkəzinin direktor müavini Şamxal Həsənov, Gənclər üçün Təhsil Mərkəzi (GTM) Qarabağ Regional ofisinin əməkdaşı Fəridə Ağayeva, Ağcabəd Rayon İcra Hakimiyyətinin nümayəndəsi Səbuhi Mövsümov və başqaları çıxış edərək, Heydər Əliyevin dövlət və xalq qarşısında xidmətlərindən bəhs ediblər.

Çıxış edənlər bildiriblər ki, ulu öndər Heydər Əliyev tərəfindən respublikada gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazasının formalaşdırılması təmin edilib. O dövrdə gənclər siyasətində idmanın roluna, onun kütləviliyinin artırılmasına xüsusi diqqət yetirilib. Çıxışlarda həmçinin deyilib ki, Heydər Əliyevin gənclər siyasəti bu gün Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə mütəşəkkil formada davam etdirilir.

Sonra tədbir maraqlı konsert proqramı ilə davam edib.

### "Heydər Əliyev dühası işığında"

Ağcabədi rayonunda Heydər Əliyev Mərkəzi tərəfindən "Heydər Əliyev dühası işığında" adlı tədbir keçirilib. Tədbir iştirakçıları Y.Məmmədov adına Mədəniyyət Mərkəzinin əsas fondunda saxlanılan eksponatlarla, Heydər Əliyevin Ağcabədiyə səfərləri zamanı çəkilmiş fotolardan ibarət sərgi ilə yaxından tanış olublar. Tədbiri giriş sözü ilə Ağcabədi TV-nin Aran aparıcısı Pərvin Şakirqızı açdı. O, 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi, rayonda keçirilən tədbirlərin əhəmiyyətindən danışdı. Daha sonra Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov, Ağcabədi rayon Heydər Əliyev Mərkəzinin direktoru vəzifəsini icra edən Rövşanə Əliyeva dahi liderin çoxşaxəli fəaliyyətindən danışaraq qeyd etdilər ki, Heydər Əliyev fenomeni xalqımızın milli sərvətidir.

Çıxışlarda "Ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir", "Heydər Əliyevin həm SSRİ dövründə, həm də müstəqillik illərində gördüyü işlər respublikamızın siyasi nüfuzunun, iqtisadi qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət edib" kimi fikirlər üstünlük təşkil edirdi.

Tədbir bədii hissə ilə yekunlaşıb.

***P.ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Baş Prokurorluqda yubiley toplantısı

**Dünən Baş Prokurorluqda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Azərbaycan Prokurorluğunun tarixində Heydər Əliyevin rolu” mövzusunda tədbir keçirilib.**



Baş prokuror Kamran Əliyev bildirilib ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət qurumlarından biri olan prokurorluq orqanlarının beynəlxalq tələblərə və standartlara uyğun formalaşaraq əhəmiyyətli statusunun müəyyən edilməsi və son nəticədə dövlətçiliyin maraqlarına xidmət edən bir təsisat kimi idarəçilik sistemində öz layiqli yerini tutması Heydər Əliyevin müdrik siyasəti, onun mütəmadi qayğı və dəstəyi nəticəsində mümkün olub.

Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamı ilə oktyabrın 1-nin respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunub. Sənəddə prokurorluq orqanlarının fəaliyyətinə yüksək qiymət verilib, prokurorluğun kollektivinin xalqımıza ləyaqətlə xidmət göstərdiyi qeyd edilib.

Tədbirdə Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclisin deputatları Nizami Səfərov, Məlahət İbrahimqızı və digər şəxslər çıxış edərək dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyinin əldə olunmasından sonra ölkədə aparılan hərtərəfli iqtisadi, sosial, hüquqi dövlət quruculuğu və digər sahələrdəki islahatlardan, müstəqilliyimizin qorunub saxlanılmasında ulu öndərin əvəzsiz rolundan bəhs ediblər.

*Q.QASIMOV,*
*“Xalq qəzeti”*

# Ümummilli liderə həsr olunmuş konfrans



**Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının təşkilatçılığı ilə “Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri” adlı elmi-praktiki konfrans keçirilib.**

Tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin rəhbər əməkdaşları, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Fəzail İbrahimli, Milli Məclisin komitə sədrləri Ziyafət Əsgərov, Sadiq Qurbanov və deputatlar, təhlükəsizlik orqanlarının veteranları, xüsusi təyinatlı və mülki ali təhsil müəssisələrinin rəhbərləri və professor-müəllim heyətləri iştirak ediblər.

General-polkovnik Əli Nağıyev Heydər Əliyevin mənalı ömrünə nəzər salaraq ulu öndərin Vətəni və xalqının rifahı yolunda misilsiz xidmətlərindən, bütün həyatı boyu milli maraqların təmin olunması naminə atdığı qətiyyətli addımlardan geniş söhbət açıb. Dahi şəxsiyyətin təhlükəsizlik orqanlarındakı fəaliyyəti ilə əlaqədar fikirlərini bölüşən general-polkovnik Əli Nağıyev Heydər Əliyevin bu qurumda şərəfli xidmət nümunələri yaratdığını, təhlükəsizlik təşkilatının milliləşdirilməsinin məhz onun adı ilə sıx bağlı olduğunu qeyd edib.

Sonra konfrans digər məruzəçilərin çıxışları ilə davam edib. Natiqlər belə tədbirlərin keçirilməsinin Heydər Əliyevin peşəkarlıq irsinin yaşadılması və təbliği baxımından böyük əhəmiyyət daşıdığını xüsusi qeyd edərək görkəmli dövlət xadiminin həyat yolundan bəhs ediblər.

# DİN-də ulu öndərin xatirəsinə ehtiram





**Mayın 6-da Daxili İşlər Nazirliyində ulu öndərin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov ulu öndər Heydər Əliyevin yeni Azərbaycanın qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının möhkəmləndirilməsində, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, demokratik imicinin yüksəldilməsində, ümumən dövlətçilik tarixində müstəsna xidmətləri barədə ətraflı danışıb. Nazir ümummilli liderin daxili işlər orqanlarının formalaşmasında və inkişafında rolunu, şəxsi heyətə diqqət və qayğısını xüsusi vurğulayıb.

Tədbir iştirakçıları qarşısında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, professor Ədalət Qasımov “Azərbaycan xalqının tarixi taleyində Heydər Əliyev fenomeni” mövzusunda əhatəli çıxış edib.

Tədbirdə ümummilli liderin zəngin həyat yolundan və fəaliyyətindən bəhs edən “Heydər Əliyev və 44 günlük Zəfər Yolu” sənədli filmi nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan olunmuş “Heydər Əliyev İli” çərçivəsində silsilə tədbirlər nazirliyin Polis Akademiyasında, Ali Hərbi Məktəbində, Əlahiddə Çevik Polis Alayında, Bakı Şəhər Baş Polis İdarəsində, ərazi polis orqanlarında və hərbi hissələrində də keçirilib, həmçinin konfranslar, intellektual yarışlar, idman turnirləri, müsabiqələr, ağacəkmə aksiyaları və sair təşkil edilib.

*Q.QƏZƏNFƏR,*
*“Xalq qəzeti”*

# Nəsillərə örnək ömür yolu

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general–leytenant İlqar Musayev qeyd edib ki, ölkəmizdə rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsi daim ulu öndərin diqqət mərkəzində olub. Məhz müdrik şəxsiyyətin diqqət və qayğı nəticəsində bu sahədə də yüksək nailiyyətlər əldə edilib.

İlqar Musayev Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin ümummilli liderin siyasətini uğurla davam və inkişaf etdirdiyini, həyata keçirdiyi müdrik siyasət nəticəsində 44 günlük Vətən müharibəsində Ermənistanın işğalı altındakı torpaqlarımızı azad edərək ata vəsiyyətini yerinə yetirdiyini diqqətə çatdırıb.

Sonra ulu öndərin Heydər Əliyevin hər kəsə örnək olan həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 149** **Bakı şəhəri, 5 may 2023-cü il**

***“Qida təhlükəsizliyi sahəsində həyat və sağlamlığın qorunması məqsədilə risklərin idarə edilməsi üzrə qeyri-müəyyən subyektlər dairəsinə münasibətdə həyata keçirilən müvəqqəti tədbirlərin tətbiqi qaydası”nın təsdiq edilməsi haqqında***

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Qida təhlükəsizliyi sahəsində həyat və sağlamlığın qorunması məqsədilə risklərin idarə edilməsi üzrə qeyri-müəyyən subyektlər dairəsinə münasibətdə həyata keçirilən müvəqqəti tədbirlərin tətbiqi qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 150** **Bakı şəhəri, 5 may 2023-cü il**

***“Qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya) haqqında qərarın qəbul edilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1.“Qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya) haqqında qərarın qəbul edilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 151** **Bakı şəhəri, 5 may 2023-cü il**

***“Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları”nın təsdiq edilməsi, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında” 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli Qərarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında” 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər və “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları”nın təsdiq edilməsi, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli qərarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” 2019-cu il 25 iyun tarixli 279 nömrəli Qərarının ləğv edilməsi barədə” 2019-cu il 25 iyul tarixli 324 nömrəli və “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə” 2008-ci il 24 iyun tarixli 145-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında.dəyişiklik edilməsi barədə***

“Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1561; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 108 nömrəli və 10 oktyabr tarixli 387 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Republikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tövsiyə olunsun ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri barədə müvafiq qərar qəbul etsin.

**3.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Qarabağ və Şərqi Zəngəzur turizm məkanına çevriləcək



**Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası strategiyasında turizmin inkişafı prioritet istiqamət təşkil edir. Çünki həmin ərazilərdə turizm potensialı olduqca zəngindir, burada mövcud sektorun inkişafı üçün bütün imkanlar var. Başqa sözlə, Azərbaycanın bu qədim tarixə malik bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə maraq doğurur. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilən ərazilərin turizmin inkişaf strategiyası və konsepsiyasının hazırlanması da bunun bariz ifadəsidir.**

Dövlət başçımızın və birinci xanım Mehriban Əliyevanın mayın 5-də Xocavənd rayonuna səfərləri zamanı da 30 il ərzində düşmən əsarətində qalan Qarabağ və Şərqi Zəngəzurun yaxın gələcəkdə turizm regionu kimi tanınacağı barədə ətraflı danışılıb. Prezident İlham Əliyev və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verilərək, bu ərazidə konseptual yanaşma çərçivəsində tarixi-memarlıq üslubunu qorumaqla mədəni turizmin dirçəldilməsi, ekoturizm və "yaşıl destinasiya" konseptində turizm sənayesinin inkişafına nail olunması qarşıya mühüm vəzifə kimi qoyulduğu bildirilib.

Yeri gəlmişkən, düşmən işğal dövründə Tuğ kəndində ənənəvi Azərbaycan memarlığına müdaxilələr edib və bəzi tikililəri vandalizmə məruz qoyub. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazisinin abadlaşdırılması nəzərdə tutulub. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə edilməsi planlaşdırılıb. Tuğ kəndinə gələcəkdə turizm axını ilə əlaqədar burada keyfiyyətli xidmətlərin göstərildiyi iaşə obyektinin yaradılması da qərara alınıb.

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Tuğ kəndində İnzibati Mərkəzin təməlinin qoyulması mərasimində də iştirak ediblər. Səfər zamanı Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma ilkin mərhələdə Tuğun ictimai-inzibati mərkəzində inşası planlaşdırılan binalar barədə məlumat verərək bildirib ki, kənddə 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada inşa olunacaq və bərpa ediləcək binaların ümumi sahəsi isə 3200 kvadratmetr təşkil edəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Tuğ kəndində ilk məhəllənin təməlinin qoyulması mərasimində iştirak etmələri isə bu yaşayış sahəsinin tezliklə məskunlaşdırılmasından xəbər verir. Xatırladaq ki, ümumi sahəsi 99 hektara yaxın olan bu yaşayış sahəsinin Tuğun təsdiq edilmiş Baş planına uyğun qaydada salınacağı nəzərdə tutulur. Eyni zamanda, 1089 nəfərin yaşayacağı məhəllədə birinci mərhələdə 24 tarixi fərdi evin bərpa ediləcəyi, 95 evin isə yenidən tikiləcəyi, növbəti mərhələlərdə isə 244 yeni fərdi evin inşası planlaşdırılır. Məhəllədə 360 yerlik məktəb binası, 50 yerlik uşaq bağçası, ticarət mərkəzləri, məscid, kilsə, tibb məntəqəsi, aptek, idman sağlamlıq sahəsi, tərəvəz və meyvə anbarı da olacaq. Ümumiyyətlə, yaşayış məhəlləsində əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış olublar. Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verilərək, bərpa olunacaq tədris müəssisəsinin 1,9 hektar ərazidə yerləşəcəyi, şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqlarının müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcəyi bildirilib.

Yeri gəlmişkən, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində respublikamızın işğal olunmuş rayonlarının təhsil infrastrukturu tamamilə dağıdılıb. Düşməndən təmizlənən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə mühüm işlərin görülməsinə başlanılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsinə səfər çərçivəsində burada salınacaq ilk yaşayış məhəlləsinin təməlqoyma mərasimində də iştirak ediblər.

Vətən müharibəsində şanlı qələbə müjdəsini Azərbaycan xalqına çatdıran tarixi müraciətində Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" ifadəsi Hadrut rayonunda 28 fərdi evdən ibarət olacaq ilk yaşayış məhəlləsinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan hadrutlular üçün ilk yaşayış məhəlləsinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya Hadrut qəsəbəsində olarkən bu yaşayış sahəsində turizm inkişafı ilə bağlı həyata keçiriləcək layihələr barədə də ətraflı məlumat verilib. Həmçinin qəsəbənin tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpasının, həmin ərazinin abadlaşdırılmasının planlaşdırıldığı vurğulanıb.

Dövlətimizin başçısı səfər çərçivəsində "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi, həmçinin Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışında da iştirak edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Füzuliyə də səfər ediblər. Səfər çərçivəsində dövlətimizin başçısı və birinci xanım Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında, habelə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən rayon mərkəzində yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olub, Pirəhmədli və Dədəli kəndlərinin təməlqoyulma, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin, Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlinin qoyulması, Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin, Füzuli–Hadrut avtomobil yolunun açılışı mərasimlərində iştirak ediblər.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

## *Ekspert rəyi*

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda tikinti-quruculuq layihələrini yüksək səviyyədə gerçəkləşdirmək, bərpa işlərini nəzərdə tutulan vaxtda həyata keçirmək məqsədi daşıyan "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli sərəncamında bildirilir ki, hazırda işğaldan azad edilən ərazilərin yenidən qurulması, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafın gerçəkləşdirilməsi, həmin torpaqlarda ən müasir infrastrukturun yaradılması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin reallaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr isə həmin yerlərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsinə və iqtisadi inkişafına əsas verir.

Qeyd edim ki, işğalçı tərəfindən tamamilə dağıdılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, bu ərazilərdə dövlət-özəl sektor tərəfdaşlığı, ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və nəhayət, dayanıqlı məskunlaşmanın təmin olunması tədbirləri uğurla icra olunur.

Xatırladım ki, Vətən müharibəsi parlaq qələbəmizlə başa çatandan dərhal sonra işğaldan azad edilən ərazilərdə başlanan bərpa-quruculuq prosesi hazırda müasir və səmərəli istehsal, ticarət və xidmət infrastrukturunun qurulması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması fonunda aydın nəzərə çarpır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın savaşdan ötən müddətdə mütəmadi olaraq düşməndən təmizlənən ərazilərə səfər edərək, yaşayış sahələrinin bərpası istiqamətində görülən işlərlə tanış olmaları, dövlətimizin başçısının quruculuq prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün müvafiq qurumların rəhbərlərinə zəruri göstərişlər verməsi 30 il ərzində erməni faşizminin qurbanı olan Qarabağ və Şərqi Zəngəzurun yaralarının tezliklə sağalacağı, dünyanın cənnət məkanlarından birinə çevriləcəyi əminliyi yaradır.



# Macarıstan ilə iqtisadi tərəfdaşlıq genişlənir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Macarıstanın iqtisadi inkişaf naziri Marton Nad ilə ölkələrimizin iqtisadi tərəfdaşlığının gücləndirilməsi istiqamətində səmərəli müzakirələr aparıb.**

Bu barədə məlumat verən nazir qeyd edib ki, görüşdə Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün yaradılmış biznes mühiti, sənaye, energetika, əczaçılıq, nəqliyyat, bank və digər sahələrdə əməkdaşlıq imkanları, ticarət əlaqələrinin təşviqi müzakirə olunub.

***"Xalq qəzeti"***

# 20 ildə strateji valyuta ehtiyatları 41,9 dəfə artıb

**Ümummilli lider Heydər Əliyev dövlətçiliyin möhkəmləndirilməsi və bazar iqtisadiyyatının formalaşdırılması istiqamətində bir sıra önəmli islahatlar həyata keçirib. Heydər Əliyev dahi siyasi xadim olmaqla yanaşı, uzunmüddətli dövr üzrə sosial iqtisadi inkişaf strategiyasının müəllifidir.**




Məhz ulu öndərin həyata keçirdiyi sosial-iqtisadi islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik bərpa olunub, inflyasiya üçrəqəmli səviyyədən təkrəqəmli səviyyəyə düşüb, büdcə kəsiri dəfələrlə azalıb, manatın məzənnəsi sabitləşib və bank sistemi sağlamlaşdırılıb. Bu sözləri Mərkəzi Bankın sədri Taleh Kazımov ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş tədbirdə deyib.

Sədr, həmçinin vurğulayıb ki, ulu öndərin əzmkarlığı və fədakarlığı ilə yaradılan iqtisadi potensial əsasında onun layiqli davamçısı Prezident İlham Əliyev qızıl inkişaf dövrünə nail olub. Onun qarşıya qoyduğu dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

Taleh Kazımov daha sonra bildirib: "2003-cü ildən başlayaraq son 20 ildə həyata keçirilən strategiya sayəsində milli iqtisadiyyatın real xərci 4 dəfə, ixrac 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub. Ölkənin strateji valyuta ehtiyatları 41,9 dəfə artaraq 65,9 milyard ABŞ dollarına çatıb. Neft gəlirləri uğurla sosial-iqtisadi inkişafa transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşdirilib".

***"Xalq qəzeti"***

# Zəngilan və Laçında 7 su elektrik stansiyası tikilir



**Hazırda "Azərenerji" Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan su elektrik stansiyalarının tikintisini aparır.**

Oxçuçayın üzərində yerləşən və Zəngilan rayonunun ərazisində yaradılan "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" su elektrik stansiyaları yeni tikilir və həmin stansiyaların hər birinin gücü 10,5 meqavat olmaqla, ümumilikdə 42 meqavat təşkil edəcək. Laçın rayonundakı 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" stansiyaları isə yenidən qurulur.

Qeyd edək ki, Prezident İlham Əliyev mayın 4-də "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

***"Xalq qəzeti"***

# Bərdə – Ağdam yolu Qarabağın baş qapısıdır

**Bərdə–Ağdam dəmir yolu xəttinin və Bərdə–Ağdam avtomobil yolunun tikintisi layihələrinin bu ilin sonunadək yekunlaşdırılması planlaşdırılır. Dəmir yolu xətti uzunluğu 104 kilometr olan Yevlax – Xankəndi dəmir yolunun bir hissəsidir.**

Bu yol 1991-ci ildə Xankəndinin, 1993-cü ildə isə Ağdamın işğal edilməsi ilə fəaliyyətini dayandırıb. Düşmən üzərində qazanılan qələbə ilə uzunluğu 47,3 kilometrdir (yan yolları ilə birlikdə 57 kilometr) olan bu dəmir yolu xəttinin Bərdədən başlayaraq Ağdama qədər uzanan hissəsi yenidən tikilir. Xəttin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb. Həmçinin torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişənlərin quraşdırılması başa çatdırılıb. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Dörd stansiyalı dəmir yolu bir xətli olacaq və qatarlar saatda 80 kilometr sürətlə hərəkət edəcək. Dəmir yolu xəttinin layihələndirilməsi işləri isə 90 faiz yerinə yetirilib.

İkinci layihə isə Bərdə – Ağdam avtomobil yolunun tikintisidir. Bu avtomobil yolunun uzunluğu 44,5 kilometr, eni 26,5 metrdir. Birinci texniki dərəcəyə uyğun inşa olunan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, dörd hərəkət zolağından ibarətdir. Yolun tikintisi zamanı ilk dəfə Azərbaycanda vahid layihə çərçivəsində daxili yol kommunikasiya şəbəkəsini tikintisi həyata keçirilir. Yol çəkilən zaman kommunikasiya xətləri də eyni vaxtda çəkilir. Bütün kommunikasiya xətləri yeraltı və səkilərin altından keçəcək və bu vaxt yollarda kanalizasiya quyuları olmayacaq. Bu yol Ağdam rayonunda onlarla yaşayış məntəqəsini bir-birinə bağlayacaq və Ağdamın şəhərdaxili yol şəbəkəsi ilə birləşəcək.



Hər iki layihənin həyata keçirilməisi ilə yanaşı, Ağdam şəhər dəmir yolu və avtovağzal kompleksinin tikintisi də nəzərdə tutulur. Artlq dəmir yolu vağzalının təməli qoyulub. Bu infrastruktur istifadəyə verildikdən sonra gündəlik min sərnişinə xidmət edəcək. Avtovağzalda isə ilkin mərhələdə şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarının sayının 10 olması planlaşdırılır və 1500 nəfərədək sərnişinin qəbul edilməsi nəzərdə tutulur.

Bərdə–Ağdam dəmir yolu xətti vasitəsilə Ağdam və digər rayonlarda geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri görüləcək, dayanıqlı sosial-iqtisadi inkişaf təmin ediləcək.



Bu imkan verəcək ki, işğaldan azad olan rayonlarımızda yerli və xarici sərmayələrin cəlb edilməsi mümkün olsun. Bu, həm də müasir texnologiyaların cəlb edilməsi kimi vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.

Yeni avtomobil yolu və dəmir yol xəttinin tikintisi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, yük və sərnişin daşımalarında əsas rol oynayacaq, yük həcminin çoxalmasına və gəlirlərin artmasına şərait yaradacaq. Nəhayət, Ağdam əhalisinin işsizlik kimi bir problemlə üzləşməsinin qarşısını alacaq. Yolboyu yaşayış məntəqələrinin sosial-iqtisadi inkiçafına da böyük töhfə verəcək.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

# İranda bədxahların Nizamini gözdən salmaq cəhdləri

## “Gəncəli dahi ya farsdır, ya da heç şair deyil” (?!)



**(əvvəli qəzetimizin 30 aprel tarixli sayında)**

AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevlə bu mövzuda söhbətimizi aşağıdakı suallarla davam etdirdik.

***–Nizami kimi bir şeyx, həkim titulu qazanmış ustadın yaradıcılığına çağdaş şiə ideoloqlarının baxış və yozumları ilə yanaşmaq, ziddiyyətli, bir-birini təkzib edən geniş müzakirə açmaq onun dünyəvi və bəşəri bir şair olmasını inkar etmək, ustadlığını şübhə altına almaq deyilmi?***

– Bundan əvvəl də göstərdiyimiz kimi, İran şiə filosofu, əllamə Məhəmmədtəqi Cəfərinin xüsusi sifarişlə yazmış olduğu “Nizami Gəncəvinin şeirlərində hikmət, ürfan və etik mövzular” kitabı məhz bu məqsədə xidmət edir. Alimin gəncəli dahi haqqındakı fikri: “Nizami Gəncəvinin sənətkarlığı, ərəb və fars sözlərinə hakim olması və məzmunu, məkanı göstərmək üçün onlardan istifadə etməsi o qədər zəngindir ki, doğrudan da, misilsizdir, deyə bilməsək də, ən azı, deyə bilərik ki, o, fars ədəbiyyatının da qəti olaraq müqayisəolunmaz bir şəxsiyyətidir”. Müəllif ilk baxışda Nizami haqqında təmtəraqlı sözlər işlətsə də, cümlənin ikinci tərəfində, az qala, bu nəhəng söz ustadını sıravi bir şair səviyyəsinə endirmiş olur.

Fikrimizcə, bununla müəllif məqsədli bir şəkildə dahi Nizamini azərbaycanlı kimi Azərbaycan, fars kimi fars dilini mükəmməl bilməyən bir natamam şair olaraq təqdim etməklə, onu azərbaycanlıların da, farsların da gözündən salmağa cəhd göstərmişdir. Nizami bütün ruhu ilə mənsub olduğu Azərbaycan xalqının şairidir və yalnız ona məxsusdur. Qeyd edək ki, bu bədxah alim Nizami haqqında fikir yürüdərkən elmi dil və üslubdan yox, bu kitabın yazılmasını ona sifariş verən, xalqlar arasına nifaq toxumu səpən, fars şovinizminə xidmət göstərən Qumdakı mürtəce mollaların diplomatik dil və üslubundan istifadə etmişdir. Ona görə də hansı əqidənin sahibi olduğu dəqiq bilinməyən Məhəmmədtəqi Cəfəri Nizaminin sənətkarlığı və hətta milli mənsubiyyəti haqqında, Mövlana demiş, zahirən “la” desə də, batində, əsl həqiqətdə “illa” demiş olur.

Alimin şeiriyyətinə kölgə saldığı “həkim Nizaminin” “fars ədəbiyyatının görkəmli xadimlərinin birinci sıralarında” yer tutması haqqında fakt qarşısında qalaraq dilucu da olsa dediyi fikir, əlbəttə, korifey sənətkarın mənsub olduğu Azərbaycan xalqı üçün qürur mənbəyidir. Nizami kimi dahi şair haqqında İran və ya fars ədəbiyyatşünaslığının da ağızdolusu danışması bu nəhəng şəxsiyyətin bütün bəşəriyyət qarşısında göstərdiyi misilsiz xidmətin məntiqi nəticəsidir.

Ümummilli lider Heydər Əliyevin vaxtilə dahi Azərbaycan şairi Füzuli haqqında dediyi: “Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun”, – fikrini dahi Azərbaycan şairi Nizamiyə də aid etmək olar. Nizamidən bütün xalqların “dədəsinin oğlu kimi” bəhs etməsi isə (akademik İsa Həbibbəyli), sadəcə, qürurverici bir haldır.

***–İranlı müəllifin “ilahi elmləri, varlıq aləminə dair həqiqətləri dərindən bilir”,– deyə təqdim etdiyi həkim Nizaminin “bəzi səhvlərə yol verdiyini” ehtiyatlı bir üslubla təqdim etməsi, onun böyük şair haqqında müsbət düşüncədə olmamasının daha bir nümunəsidir.***



–Söhbət ondan gedir ki, Nizaminin “Allahı gözlə görmək” fikrini səhv olaraq nəzərdən keçirib konkret beytlərlə təsdiqə çatdırmaq istəyən Cəfəri poetik konteksti öz məqsədinə uyğun şəkildə təhlil edir və şairin ideyasında təhrifə yol verir:

*İşıqlıq bəsirət əhlinin nəzərində*
*Zahiri işıq deyil, təsəvvür etməkdir.*

Bu beytində Nizami bu “görmə”nin batini yolla, bəsirət ilə mümkün olduğunu açıq şəkildə ifadə etmişdir. Bundan başqa, alim Nizaminin “Sən ki cövhər deyilsən, yox məkanın, vurğunun xəyalı sənə çata bilərmi?” beytini fərqli istiqamətdə, məzmunun əksinə təhlil edərək Nizamiyə və onun şeyxliyinə yanlış don biçməyə çalışmışdır. Bu, açıq-aydın Azərbaycan şairini farsa çevirə bilməyən İran aliminin acığını onun yaradıcılığından çıxması cəhdidir. Bütün bunlar zavallı Cəfərinin Nizami haqqında həqiqətləri söyləmək deyil, qərəzləri ortaya qoymaq məqsədindən xəbər verir.

Bu azmış kimi, müəllif Nizami Gəncəvi fikirlərinə etirazlarını aşağıdakı cümlələrdə daha da dərinləşdirir: ”Bu sahədə Nizami Gəncəviyə belə bir etiraz oluna bilər ki, zahiri gözlərlə Allahı görməyi mümkün hesab edən şair hansı səbəbə görə qəlbi və canı ilə Allahı görməkdə özünü aciz bilir?!” Kitab müəllifi burada, sanki, hər şeydə bir “əmma” axtaran qərəzkar bir opponent kimi çıxış edir.

***–Yəni, nəyin bahasına olursa-olsun, Nizamiyə bir əmma qoşmaq... Müəllif unudur ki, böyük Nizami Gəncəvi, ilahiyyatçı deyil, ədəbiyyatçı – şair olmuşdur.***

– Bəli, buna tənqid xatirinə tənqid deyirlər ki, əslində, qərəzdən başqa bir şey deyil. Belə bir zərərli baxışın nəticəsidir ki, şeyx olaraq dövründə böyük hörmət və ehtiram qazanmış dahi Nizami Gəncəvi Allahın sifətlərinin əzəli və əbədi olduğunu bildirdiyi halda, nədənsə, tədqiqatçı şairin bu fikri ilə razılaşmır. Allahın sifətlərinin iki qrupa: zahiri və fiili sifətlərə bölündüyünü iddia edən müəllif şeyx Nizaminin “səhvlərini təshih etməklə” məşğul olur. Əvvəldə də qeyd etdiyimiz kimi, müəllif kitabının adını “Nizami Gəncəvinin yaradıcılığında hikmət, ürfan və etik mövzular” formatında qoysa da, qeyri-etik olaraq Nizami sənətində səhvlər axtarmaqla məşğul olur. Digər bir məqamla əlaqədar da müəllifin iddiası narazılıq doğurur:

*Çox vurnuxdu düşüncə, anlamadı sirrini*
*Çox axtarıb tapmadı Tanrının bənzərini.*
*Necə ürək eyləyib o ümmana girər can?*
*Necə, hansı hünərlə su içər o bulaqdan?*

– misralarındakı fikirlər, guya, Həzrət Əlinin sözlərinə əsasən qəbul olunmur. Şair Nizami Gəncəvi ilə İslam aləminin mötəbər şəxsiyyətlərindən olan əmirəlmömin ilə həzrət Əlini qarşılaşdırmaq nə dərəcədə doğrudur?!

Müəllif “Xosrov və Şirin”də peyğəmbərimizin əmisi Həzrəti Əbutalibin İslamdan əvvəl bütpərəst olmasının göstərilməsi fikrinə də etiraz edir. Belə görünür ki, Məhəmmədtəqi Cəfəri bu kitabı yazmaqla, qarşısına məqsəd qoymuşdur ki, böyük şairi gözdən salsın. Təsadüfi deyildir ki,o, mömin bir bəndə, yüksək mərtəbəli şeyx olan qüdrətli şairi, az qala, dinsiz adlandırır, onu İslam qanun və hökmlərini inkar edən, ona zidd fikirlər söyləyən bir şəxsiyyət, söz ustası kimi səciyyələndirir.

Müəllif Nizaminin Həzrət İbrahim haqqında “Allah onu bütxanadan çıxartdı” cümləsini qəbuledilməz adlandırır, bu mülahizəni yanlış hesab edir. Elmi baxımdan Nizami haqlıdır, çünki Həzrət İbrahim dövründə bütpərəstliyin olmadığını iddia etmək cəfəngdir. Yenə müəllif şairin “Canlı varlıqların yaşaması onların varlıqlarından asılıdır” fikrinə də etiraz edərək onu “olduqca sadəlövh bir təsəvvür” adlandırır.

Kitabın adı “Nizami Gəncəvinin şeirlərində hikmət, ürfan və etik mövzular” olmasına baxmayaraq, burada daha çox irfan məsələlərindən bəhs edilmişdir. Əslində, bu kitabda Nizami şeirlərindən, poeziyasından yox, “Xəmsə”dən, məsnəvilərdən bəhs edilmişdir. Bu kitab filoloji tədqiqat yox, dini əsərdir, teologiya, ilahiyyat elminə aiddir. Çünki burada daha çox ilahinin qüdrətləri, onun nemətlərindən istifadə olunması, Allah və insan məsələlərindən tək Nizami Gəncəvi yaradıcılığında deyil, ümumiyyətlə, farsdilli ədəbiyyatdakı qoyuluşundan bəhs edilir.

Sonda fikrimizi yenə akademik Marrın sözləri ilə bitirmək istəyirik. Keçən əsrin 20-ci illərində İrana səfər etmiş akademik Marrın fikrincə, İran alimləri farsca yazdığına görə böyük sənətkarı İran-fars şairi hesab etsələr də, “Əz asare-Nizami buye-türk miyayəd” – “Nizaminin əsərlərindən türk iyi gəlir”– deyərək, şairin yaradıcılığını ruhən, candan-könüldən qəbul edə bilmirlər. Görünür, məhz bu səbəbdən İran alimi Məhəmmədtəqi Cəfəri böyük Azərbaycan şairi Nizami Gəncəvini həzm edə bilməmiş, aşağılamağa çalışmış, lakin özünü rüsvay etmişdir.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***



# “Şahnamə” miniatürü 6.1 milyon dollara satılıb

**Məşhur “Sotheby” hərracında Şah Təhmasibin “Şahnamə”sinin əlyazmasının illüstrasiyalı vərəqi 6,1 milyon dollara satılıb.**

Bu barədə jurnalistlərə məlumat verən hərracın İslam və Hindistan incəsənəti departamentinin direktoru Benedikt Karter qeyd edib ki, İran–Turan müharibəsinin rəsmini əks etdirən bu qiymətli nümunə auksionda ən çox təklif alan əsərlər sırasında olub. O əlavə edib ki, bu illüstrasiyalı vərəq dünyanın orta əsrlərə aid ən nadir əsərlərindən biridir. Bu unikal nümunə 1658-ci ildə Şah İsmayılın oğlu Şah Təhmasib tərəfindən Osmanlı Sultanı II Səlimə hədiyyə edilib.

Hərracda, həmçinin, XVII–XVIII əsrlərə aid Yaxın Şərq, Şimali Afrika, Türkiyə, İran, Hindistan və Cənubi Asiyadan müxtəlif İslam əsərləri də satılıb. B.Karter bildirib ki, ümumilikdə, 135 əsər kolleksiyaçılar tərəfindən alınıb. Onların arasında Osmanlı imperiyası zamanında – XVII–XIX əsrlərdə məşhur müsəlman xəttatları tərəfindən yazılmış Qurani-Kərimin nadir nümunələri də var. Osmanlı sultanlarının XVII əsrə aid qızıl naxışlı xəncəri isə 254 min funt sterlinqə satılıb. Həmin əsrdə hazırlanan “Qızıl buynuz” vazasının satışından 126 min dollar, müxtəlif geyim, keramika, metal əşyalar və rəsm əsərlərindən isə “Sotheby” hərracı 15,7 milyon dollar əldə edib.

B.Karter vurğulayıb ki, son illər hərracda İslam əsərləri və irs nümunələrinə tələbat xeyli artıb. Kolleksiyaçılar onların nadir olmasına xüsusi əhəmiyyət verirlər. Ən çox tələbat isə Qurani-Kərimin müxtəlif əsrlərdə xəttatlar tərəfindən yazılmış nümunələridir.

***“Xalq qəzeti”***

# Mən nə gətirdim...

***(Milli hökumətin süqutundan sonra Təbrizdən Naxçıvana keçərkən yazılıb)***

Mən öz qardaşıma mehman gələndə
Bir qələm, bir dəftər, bir can gətirdim
Dağların döşünü toplar dələndə
Bir ləkə düşməyən vicdan gətirdim.

Mən onu günəşdən təmiz saxladım,
Canımdan, gözümdən əziz saxladım,
Bu kiçik qəlbimdə dəniz saxladım
Bir xilqət görmədi, pünhan gətirdim.

Ucuz tutmasınlar bu sovqatımı.
Hissimi, duyğumu, ehsasatımı,
Mən öz varlığımı, öz həyatımı
Doğma qardaşıma qurban gətirdim.

Ürək daş deyildir, bir parça ətdir,
Bəs onu yaşadan hansı qüdrətdir?
Bir arzu, bir ümid, bir məhəbbətdir,
Mən o məhəbbətdən nişan gətirdim.



Qardaşım, illərlə istədin ki, sən
Öz ana yurdumda azad olum mən…
Lakin cəlalımı dağıtdı düşmən,
Tək sənə, tək sənə güman gətirdim.

Yenə Azərbaycan qan ağlayır, qan,
O azad olmasa, yaşamam, inan!
Gərək mən Təbrizə qayıdan zaman
Deyəm ki, təzə bir dövran gətirdim.

**Əli TUDƏ**

# Şah İsmayıl dövrünün Azərbaycan intibahı



**Azərbaycan mühacirlərindən Əbdülvahab Yurdsevərin (1898–1976) Şah İsmayıl Xətai ilə bağlı 1954-cü ildə yazdığı geniş yazının bir bölümü “Şahın sarayı” adlanırdı. Güneydə Azərbaycan dilinin rəsmən sıxışdırılmasının tarixi ədalətsizlik olduğunun vurğulandığı bu yazıda əks olunmuş həqiqətin fonunda bir daha aydın görünür:**

“Şah İsmayıl şeir yazmaq, Azərbaycan türkcəsini inkişaf etdirməklə yanaşı, Səfəvi dövlətinin sarayını Azərbaycan ədəbiyyatının, musiqi və sənətinin və bütün mədəni fəaliyyətlərin mərkəzinə çevirmişdi. Şah şeir və ədəbiyyat qədər musiqi və rəssamlığı da sevərdi. Ağqoyunlular zamanında və Səfəvi dövlətinin ilk dövrlərində hökumətin mərkəzi olan Təbriz Yaxın Şərqin ən mədəni və sıx əhalisi olan bir şəhərinə çevrilmişdi.

Daha öncə Elxanilər (Hülakülər sülaləsi) tərəfindən 1294-cü ildən etibarən paytaxt elan edilən Təbriz XVI əsrin ortalarına qədər bu adını qorumuşdu. XV–XVI əsrlərdə Azərbaycana gələn Avropa səyyahları Təbrizin böyüklüyünü, canlılığını və adamların çoxluğunu görərək mübaliğəyə qapılır və əhalinin sayını bir milyona qədər təxmin edirdilər. Fəqət, nə də olsa, bu təxminlər göstərir ki, Təbriz şəhəri o dövrün Orta Doğu bölgəsində çox mühüm bir yer tuturmuş. Əsrlər boyunca paytaxt vəzifəsini daşıyan Təbrizdə Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər tərəfindən yüksək memarlıq əsərləri olan bir çox gözəl bina, məscid və böyük bir bazar ərsəyə gətirilmişdi.

Şəhər həm böyük bir ticarət mərkəzi, həm də qızıl, gümüş və ipəkdən hazırlanan incə əl işi sənətinin inkişaf etdiyi bir mahal idi. Belə əl işi sənətləri ilə bu gün də Təbriz böyük şöhrət qazanıb. Ədəbiyyata hər baxımdan müstəsna əhəmiyyət verən Şah İsmayıl öz sarayında ədəbi məclis qurmuş və başına tanınmış Azərbaycan şairi Həbibini “Məliküş-şüəra” ünvanı ilə gətirmişdi. Bu məclisdə Sürури, Şahi, Tufeyli, Kişvəri, Matəmi, Qasimi və digər ədiblər iştirak edirdilər. Şeir və ədəbiyyat o dərəcədə etibar qazanmışdı ki, Səfəvi dövlətinə tabe olan bölgələrin əmirləri də sənət aşiqi Şah İsmayılı təqlid edərək şeir yazır, saraylarda ədəbi toplantılar təşkil edirdilər.

Səfəvi dövrü ədəbiyyatının əsas qayəsi şiəliyi müdafiə etmək idi. Buna görə də qəsidə janrında vəsf etməyə, yəni, Həzrət Əlinin sülbündən gələn on iki imamın fəzilət və xarakterini tərif və tövsif edən şeirlərə rast gəlinirdi.

Şahın özü isə bir hökmdardan daha çox, bir mürşid və ya bir məzhəb başçısı sifəti ilə qəsidələrdə mədh olunmaqda idi. Şahın əmri ilə sarayda möhtəşəm bir kitabxana yaradılaraq tanınmış klassik ədiblərin əsərləri bir araya gətirilmişdi. Məşhur xəttatlar bu əsərlərin surətini köçürürdülər. Rəssamlar bu əlyazmalara miniatürlər hazırlayırdılar. Beləcə, rəssamlıq getdikcə inkişaf edirdi.

Şərqin Rafaeli adı ilə böyük şöhrət qazanan Kəmaləddin Behzad bu rəssamlıq məktəbinə mənsub və onun rəhbəri idi. Behzad o dönəmin məşhur rəssamı təbrizli Seyid Əhmədin tələbəsi idi. Əslən heratlı idi, 1506-cı ildə Təbrizə köçmüşdü. Şah İsmayılın 1521-ci ildə verdiyi xüsusi əmrlə bu vəzifəyə başlamışdı və oğlu Şah Təhmasib dövründə də mövqeyini qoruyub saxlamışdı.

Behzad ilə yanaşı, Ağa Mirək Təbrizi, Sultan Məhəmməd Təbrizi, Müzəffər Əli Nəqqaş və Hafiz Təbrizi kimi istedadlı sənətkarlar dövrün rəssamlıq sənətinə qəti forma və üslub vermişdilər. Bu üslubun özünəməxsus cəhəti rəssamlıqla ədəbiyyatın əl-ələ bərabər şəkildə yürüməsidir. Rəssamlıq başlıca olaraq miniatür sənətinə təmayül göstərdiyi üçün poemalardakı lirik səhnələrin bütün incəliklərlə təsviri və canlandırılması vacib idi. Bu isə rəssamın, eyni zamanda ədəbi zövq və düşüncə sahibi olması ilə mümkün idi. Hazırda Avropa muzeylərində nümunələri mühafizə edilən bu miniatürlər mütəxəssislər tərəfindən yüksək sənət əsəri olaraq dəyərləndirilir.

Beləcə, görürük ki, Şah İsmayıl yalnız qılıncı ilə ölkələr fəth edib möhtəşəm bir səltənət quran hökmdar deyil, eyni zamanda qələmi ilə, ədəbi dühası və dərin sənət zövqü ilə Türk toplumuna xidmət etmiş böyük bir simadır.

Qısa sürən ömrü siyasi və mədəni səmərələri yönündən çox zəngin olub. O, həm böyük bir dövlət qurub, həm də bu dövlətin yaşaması və inkişafı üçün lazım olan ideoloji və mədəni gücləri hərəkətə keçirib.

Şah İsmayıl Türk tarixində qədri-qiyməti əsla kiçildilməyəcək qədər mühüm bir yer tutur. Onun şəxsiyyəti və rolu ətrafında düşünərkən, həyatının və fəaliyyətinin bütün mərhələləri göz önünə gətirilməlidir”.

**“Azərbaycan” jurnalı,**
**aprel, 1954**
**Hazırladı: Dilqəm ƏHMƏD**

# Böyük Britaniya Kralının tacqoyma mərasimi keçirilib



**Dünən Londonda Britaniya Kralı III Çarlzın tacqoyma mərasimi təşkil olunub. Tədbirə çox sayda dövlət və hökumət başçıları, görkəmli elm və incəsənət xadimləri dəvət olunublar. Bütövlükdə, tədbirdə dünyanın 200-dək ölkəsindən 2,2 mindən çox insanın iştirak etdiyi bildirilib. Bundan əlavə mərasimi milyonlarla insan televiziya vasitəsilə izləyib.**

Qeyd edək ki, mərasim Londondakı Çarlzın anası, 96 yaşlı Kraliça II Elizabetin ötən ilin sentyabr ayında dəfn mərasiminin keçirildiyi Vestminster abbatlığında təşkil olunub.

Tacqoyma mərasimi qeyri-adi bir təmtəraqla və şənliklərlə dolu bir hadisədir. Dünən Londonda yüz minlərlə insan Bukinhem sarayından Vestminster abbatlığına gedən marşrut xətti boyu toplaşaraq mərasimi canlı izləyiblər. Saraydan Vestminster abbatlığına gedən yolun uzunluğu 2,29 kilometrdir. Yol boyu çox sayda müşahidə platformaları açılıb.

Yeri gəlmişkən, Çarlz və həyat yoldaşı Kraliça Kamilla xidmətə "Diamond Jubilee" ekipajı ilə gediblər. Yeni Kral 700 ildən artıqdır ki, Britaniya monarxlarının tacqoyma mərasimində istifadə edilən kürsüdə oturub. Bu, həmin kürsüdür ki, 1296-cı ildə Kral I Edvard tərəfindən şotlandlardan qənimət kimi ələ keçirilib. Kral Vestminister abbatlığında Qüdsdən gətirilən müqəddəs yağla məsh edilib.

Tədbirdən sonra Çarlz və Kamilla 1762-ci ildə tikilmiş və 1831-ci ildən bəri hər tacqoyma tədbirində istifadə edilən məşhur kareta ilə Bukinhem sarayına qayıdıblar. Arabanı səkkiz boz at çəkib.

Xatırladaq ki, Çarlz 2022-ci il sentyabrın 8-də anası, Kraliça II Elizabetin ölümündən sonra rəsmən Böyük Britaniyanın kralı olub. Tacqoyma mərasimini ölkə əhalisi səbirsizliklə gözləyirdi. Belə mərasimlərdə sakinlər bir qayda olaraq yeni monarxı alqışlayır, ona ən səmimi və ülvi arzularını bildirməyə çalışırlar. İnsanlar bu unudulmaz anları ömür boyu xatırlayır və bundan qürur duyurlar.

Dünən paytaxt Londonda həmçinin ölkənin bir çox böyük şəhər və qəsəbələrində ictimaiyyətin geniş iştirakı ilə geniş şənliklər keçirilib. Xatırladaq ki, sonuncu dəfə Böyük Britaniyada Kraliça Elizabetin tacqoyma mərasimi yetmiş il əvvəl keçirilib.

Budəfəki tacqoyma mərasimində əksər tədbirlər təkrar olunsa da, müəyyən fərqlər də olub. 74 yaşlı kralı narahat edən məqamlar da var. Belə ki, son rəy sorğularına görə, ölkə ictimaiyyətinin əlli səkkiz faizi monarxiyanı dəstəkləsə də, 18-24 yaşlı gənclərin yalnız otuz səkkiz faizi monarxiyanı qalmasını məqbul sayır.

Tacqoyma mərasimində ciddi təhlükəsizlik tədbirləri görülüb. Məsələn, mərasim zamanı Londonun mərkəzində pilotsuz uçuş aparatlarının havaya qaldırılması qadağan edilib.

Beləliklə, III Çarlz rəsmən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kralı oldu. Xatırladaq ki, III Çarlz Vestminster abbatlığında tacqoyma mərasimi keçirilən 40-cı monarxdır. İlk tacqoyma mərasimi 1066-cı ildə baş tutub.

**P.S.** Qeyd edək ki, Azərbaycanı mərasimdə Milli Məclisin Sədri Sahibə Qafarova təmsil edib.

***M.HACIXANLI,***
***"Xalq qəzeti"***



# Ciddədə Sudan danışıqları

**Sudan ordusunun və çevik reaksiya qüvvələrinin (xüsusi təyinatlılar) nümayəndə heyətləri Səudiyyə Ərəbistanının Ciddə şəhərində danışıqlara başlayıb.**

"The Associated Press" agentliyi xəbər verir ki, bu görüş ABŞ və Böyük Britaniyanın təklif etdiyi və hərbi əməliyyatların dayandırılmasına hədəflənən təşəbbüsün bir hissəsidir. Münaqişə tərəfləri arasında danışıqlar prosesinin bitməsi üçün son tarix nəzərdə tutulmayıb.

Sudanda vəziyyət Suveren Şuraya rəhbərlik edən ordu komandanı Əbdül-Fəttah əl-Burhan ilə onun Şuradakı müavini olan çevik reaksiya qüvvələrinin rəhbəri Məhəmməd Həmdan Daqalo arasında fikir ayrılığı səbəbindən gərginləşib. İki hərbi struktur arasındakı əsas ziddiyyətlər ölkənin vahid silahlı qüvvələrinin formalaşdırılmasının vaxtı və üsulları, eləcə də orduda kimin baş komandan olması ilə bağlıdır.

Aprelin 15-də tərəflər arasında başlayan silahlı münaqişə nəticəsində 700 nəfər yaxın insanın həlak olduğu, yaralıların sayının 5 minə çatdığını bildirilir. BMT-nin məlumatına əsasən, döyüşlərin başlanğıcından bəri 115 min sudanlı ölkəni tərk etmək məcburiyyətinə qalıb.

***"Xalq qəzeti"***

# "Amerika milləti" ideyası: Dünya hegemonluğu və daxili çatlar

**ABŞ-ın dünya hegemonluğundan çox danışılır. Mövcud xüsusda müxtəlif paralellər aparılır. Nəticə, həqiqətən, heyrətamizdir. Birləşmiş Ştatlar bütün komponentlərdə üstündür. Ancaq üstünlükdə hansı amillər rol oynayıb, onun zühürü kimi, qürubu da mümkündürmü? Bu sayaq suallar ətrafında düşünərkən, ilk növbədə yada düşən ABŞ-dakı etnik sistemdir. Əslində, məsələyə etnik sistem baxımından yanaşmaq da düzgün deyil. Çünki okeanın o tayındakı baxış üçün "Amerika milləti" anlayışı var. Ancaq reallıqlar da nəzərdən qaçırılmamalıdır. Yazımızda həmin reallıqlardan söz açacaq, "Amerika milləti" anlayışı ilə bağlı incəliklərə varmağa çalışacağıq.**



Əvvəla, onu vurğulayaq ki, ABŞ-da əhalinin 1790-cı ilə təsadüf etmiş birinci siyahıyaalınmasında söhbət 4 milyon nəfərdən gedib. İki əsr ərzində Birləşmiş Ştatlara 64 milyon miqrant axını olub. Reallıqda ikinci rəqəm daha böyükdür. Çünki qeydiyyata alınmayanların həddən çox olduğu bildirilir. XXI əsrin ilk onilliyinin tamamında ABŞ əhalisinin sayı 314 milyon 895 min idi. Bu rəqəmi 1910-cu illə müqayisə etsək (həmin vaxtkı rəqəm 92 milyon 228 mindir), bir əsr ərzindəki artım çox yüksək alınır - 3,4 dəfə. Bu mümkündürmü və ya necə mümkünləşib?

Qeyd edək ki, hələ lap başlanğıcdan ABŞ-ın etnik sistemi, əsasən, Avropa substratı üzərində formalaşmağa başlayıb. Yerli hindu əhalini sıxışdıran və ya tamamilə məhv edən avropalı miqrantlar Şimali Amerika məkanını ələ keçiriblər. Onlar ciddi şəkildə, özü də uzun müddətə hesablanmış məskunlaşmanı reallaşdırıblar. Bu, Amerikadakı Avropa müstəmləkələşdirilməsini rusların Sibirdəki mövcudiyyətindən fərqləndirən başlıca xüsusiyyətdir.

İlk dönəmlərdə avropalılar hindu etnogenetik matriçanı sıxışdıraraq, yerini təmiz avropalılarla doldururdular. Onlar çox nadir hallarda hindularla izdivaclara gedirdilər. Bir məsələyə də diqqət yetirmək lazımdır ki, Amerikanın etnik sistemi, əslində, Avropanınkının təbii davamıdır. Əgər Sibir subetnosu hələ də öz daxili semantik təsirini qoruyursa, Amerikada ana matriçadan erkən uzaqlaşma hadisəsi baş vermişdi. Hindular məhv edilmişdir. Hətta iş o yerə çatmışdı ki, işçi qüvvəsinə ehtiyac duyulmuş və Afrikadan zənci qullar gətirilmişdir. Ardınca Meksikadan, Mərkəzi Amerikadan və Cənub-Şərqi Asiyadan miqrant axınları baş vermişdi. Nəticədə irqi rəng öz ağlığını itirmiş və belə demək mümkünsə, irqin təmizliyinə "xələl" gəlmişdir. Əlbəttə, amerikalılar bu barədə danışmağı sevmirlər. Görünür, mövcud səbəbdəndir ki, onların hazırkı etnik tərkibi ilə bağlı dəqiq bilgilər əldə etmək nəinki çətindir, ümumiyyətlə mümkünsüzdür.

Vəziyyətin düzgün anlaşılması üçün bir neçə vacib şərtə diqqət yetirmək zərurəti yaranır. Məsələn, ABŞ-dakı etnogenetik durumu qiymətləndirmək istəyiriksə, ilk növbədə, etnoloji anlayışlara söykənmək vacibdir. Amerika siyasi elitasının ölkənin mənfəətləri naminə irəli sürdüyü mülahizələrin təsirindən uzaq durulmalıdır. Çünki amerikalıların milli tərkibinin dəqiq fiksasiyasından boyun qaçırılır. "Amerika milləti" adı altında, dünyanı xilas edəcək qüvvənin mövcudluğu məfkurəsinin yeridilməsi, əslində, amerikalıların özlərini də etnosun dərkində çətinliklərlə uzləşdirir. Baxın, öz kimliyini qavramaq qabiliyyətindən məhrum toplum hansısa qlobal xeyirxahlıq missiyasının yerinə yetirilməsinə qol çırmayır. Xeyirxahlığın isə nədən ibarət olduğunu istər Əfqanıstan və İraqda, istərsə də "ərəb baharı" ssenarisinin gerçəkləşdiyi məmləkətlərdə yaxşı gördük…

ABŞ-ın yarandığı ilk dövrlərdə miqrantların əksəriyyətini ingilislər, irlandlar və şotlandlar təşkil edirdi. Buna görə etniklər arasında ünsiyyət vasitəsi kimi ingilis dili seçilirdi. Bununla yanaşı, ölkədə inzibati qaydada bir sıra dolaşıq vəziyyət yaradan terminlərdən də istifadə olunur. Məsələn, ispan dilli latın amerikallarla ispan mənşəlilər arasında fərqlər müəyyənləşdirilir və aydın görünür ki, bu cür təsnifat, əslində, məsələ barədə araşdırma aparmağı hədəfləyənləri, bir növ, çətinliyə salmağı hədəf götürüb. Təbii, problemin mahiyyətinə varılması üçün, əslində, belə qəlizliklərə deyil, düzgün anlayışlara müraciət olunmalıdır.

Əlbəttə, etnosun nədən ibarət olduğuna diqqət yetirilməlidir. Nəzərə alınmalıdır ki, birgə yaşam, ilk növbədə, qan qohumluğuna söykənir. Etnosun əsasını ailə, nəsil və tayfa təşkil edir. Burada sosial və iqtisadi xarakteristika yolverilməzdir və mövcud halda çox sayda böyük və kiçik etnik qruplardan söz açmaq mümkündür. Onlardan daha böyüyü və güclüsü almanlar, irlandlar, ingilislər, meksikalılar, italyanlar və fransızlardır. İrqi nöqteyi-nəzərdən isə ağ amerikalılar, belə desək, latınlar (Meksika, Mərkəzi və Cənubi Amerika mənşəli amerikalılar), afro-amerikalılar və Asiya mənşəli amerikalılar fərqlənirlər. Maraqlıdır ki, heç yerdə və heç vaxt qarışıq nikahlardan törəyənlərin sayı nəzərə alınmır. Onlar özlərinin etnik identifikasiyalarına görə ikili səciyyə daşımaqdadırlar və məhz beləleri üçün "Amerika milləti"nın ilahi rolu barədə deyilənlər cəfəngiyyatdan o tərəfə getmir.

Amerikalıların etnogenetik statuslarına diqqət yetirək. Bununla bağlı müvafiq xarakteristikalarda etnogen əlaqə sıxlığı deyil, subetnik əlamətlər baxımından bölgü əsas götürülərək subetniklər arasındakı daxili zəif əlaqələrdən söhbət açılır. Bu isə böyüklərin özünüdərkinin zəiflədilməsinə, kiçiklərin vahidləşərək bir məqsədə çatma ideyalarının formalaşmasına yönəlib. "Amerika milləti" məfkurəsi də elə buradan qaynaqlanır.

ABŞ diplomatiyasının görkəmli nümayəndələrindən sayılan Henri Kissincerin "Diplomatiya"sını diqqətlə oxuyanda haradasa sirlərin üzərini açmaq mümkündür. Əlbəttə, bu, yanaşmadan da asılıdır. Çünki kitab adamı amerikapərəst də edə bilər. Axı, müəllif elə lap başlanğıcdan əsərini yüksək notlara – "Amerika milləti"nin şərəfli obrazına kökləyir. Təbiidir ki, mübahisə etmək olmaz, amerikalılar beynəlxalq siyasətə böyük təsir göstəriblər. 200 il əvvəl yalnız etnik sistem kimi yaranaraq, sonradan bütün dünyaya geosiyasi iddialar irəli sürmək adi məsələ deyil. Amerika geosiyasətinin strateji məqsədi həm də Qərb yarımkürəsində birmənalı hökmranlığa yönəlmişdi və bu istək baş tutdu. Birinci dünya müharibəsi Avropa dövlətlərini və Rusiyanı zəiflətdi ki, həmin vəziyyət ABŞ üçün əlverişli mühit formalaşdırdı. Ortaya Vudro Vilson (1913-1921-ci illərdə ABŞ Prezidenti olub) kimi adam çıxdı və o, özünün "14 maddə"lik prinsipi ilə əslində, dünyanın bu gün üçün də prioritet saydığı siyasi dəyərlər sisteminin əsasını qoydu.

Vilsonun "14 maddə"sində daxili işlərə qarışmağın yolverilməzliyi də bir prinsip kimi əksini tapmışdı. Amma istər XX əsrin iyirminci illərindən sonrakı, istərsə də həmin vaxtdan xeyli əvvəlki Amerika davranış tərzi bunu tamamilə inkar edən hərəkətlərə baş vurdu. Başqalarının şəxsi dəyərlərinin universallığı Birləşmiş Ştatların baxış ölçüsünə ya tamamilə uyğun gə(tiri) lmədi, ya da sanki kif atmış məhsul kimi dəyərləndirildi. Nəticədə ABŞ Cənubi Amerikada və Afrikada çevrilişlər hazırladı, heç bir diskonfort keçirmədən beynəlxalq məsələlərdə ikili standartlardan çıxış etdi, Quantanamoda həbsxana saxladı, işgəncələr verdi və sair.

Əslində, indi "Amerika milləti" ilə "Sovet xalqı" deyimi də haradasa oxşarlıq təşkil edir. Maraqlıdır, SSRİ-nin daha demokratik olduğu nəzərə çarpır. Çünki Sovetlər Birliyində millət anlayışına yanaşmada tolerantlıq nisbətən yüksək idi. ABŞ-da sanki millət yoxdur. Görünür, Amerika elitası millətlərin öz müqəddaratını təyin etməsi prinsipindən uzaqdır. Hesab edir ki, bu təcrübədən yalnız dağıdıcı siyasi məqsədlər naminə bəhrələnmək mümkündür. Bu yanaşmanı haqlı saymaq olar. Amma, necə deyərlər, öz ölkənə nə cür yanaşırsansa, kənara da elə münasibət göstər. Belə münasibət varmı?..

Digər tərəfdən, etnogenez tarixin gedişatını dəyişdirmək və ona təsir göstərmək imkanlarına malik deyil. Tarixin gedişatı etnik sistemin sadədən mürəkkəbə gedən yolu, daha doğrusu, bifurkasiyaya (bölünmə) aparan böhranları kimi inkişafın qaçılmazlığından irəli gəlir. Bundan çıxış edərək məntiqi surətdə ehtimal etmək olar ki, ABŞ etnogenezinin birinci mərhələsinin başa çatması ilə "bifurkasiya nöqtəsi" adlandırılmış hadisə baş verəcək. Həmin proses sistemin və mühitin dezinteqrasiyasını doğura bilər. Nəticədə Birləşmiş Ştatlarda indi də kiçik etnoslar arasında müşahidə edilən ziddiyyətlərin subetnosların bir-birilə qarşıdurması qiyafəsinə bürünərək, daha da güclənməsi mümkündür.

Təbii ki, bu sayaq versiyalar Kissincerin ABŞ üçün təsvir etdiyi etnogenetik və sosial-iqtisadi mühitə yaddır. Amma dünyanı başına almış böhranın Birləşmiş Ştatlarda da bir sıra xoşagəlməz hallar doğurduğunu gördük. Böhran cəmiyyətdəki sosial gərginlikləri həm üzə çıxardı, həm də daha böyük fazada özünü göstərməsinə şərait yaratdı. Məlum oldu ki, yüksək gəlir gətirən iş yerlərinin əksəriyyəti ağ vətəndaşlara məxsusdur. Sabiq Prezident Barak Obamanın qaradərililərin işə götürülərkən üstünlüyə malik olmalarını təsdiqləyən fərmanı meydana çıxdı və bu, ağlarda narazılıq doğurdu. Ağ əhali içərisində vətənpərvər şüarlar irəli sürən təşkilatlar və ittifaqlar fəaliyyətlərini gücləndirməyə başladılar. Belələrinin, mahiyyət etibarilə, tarixi kalloabolosionistlərdən (quldarlığın saxlanması tərəfdarları, abolosionistlər isə quldarlığın ləğvi tərəfdarları olublar) fərqlənmədikləri nəzərə çarpdı.

Gələk indiki dövrə. Qeyd edək ki, populyar kluar ideoloji təbliğatları ağ vətəndaşları vətənpərvər kimi birləşdirməkdə öz sözünü desə də, ABŞ-dakı demoqrafik vəziyyət heç də "ağların" xeyrinə deyil. Bu gün "rənglilər" daha çox artım xüsusiyyətinə malikdirlər. Ölkənin qərbində və cənubundakı məktəblərin kiçik yaş qruplarında onların sayının çoxluğu aşkar nəzərə çarpır. Cənubda elə yerlər var ki, orada qara dərililərin hərəkətləri ağ əhalini şimala doğru üz tutmaq məcburiyyətində qoyur.

Bütün bunlara görə XXI əsrin Amerika xalqı və dövlətçiliyi üçün də dönüş əsri olacağını söyləyənlər çoxluq təşkil edir. Yeri gəlmişkən, dönüşlərdən biri artıq yaşandı - yeni əsrdə Birləşmiş Ştatlar özünə tarixində ilk dəfə olaraq qaradərili prezident seçdi.

***R.AMİN***

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 94 (30210) 7 may 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az


**İtalyan rəssam Leonardo da Vinçinin məşhur "Mona Liza" tablosunun daha bir sirri açılıb. Belə ki, yerli tarixçilərdən biri tablonun fonundakı körpünün yerləşdiyi ərazini müəyyən edərək, əsərin harada çəkildiyini dəqiqləşdirib.**

## "Mona Liza körpüsü"



Layihə üzərində "Le Rocca" mədəniyyət dərnəyi ilə birlikdə işləyən tarixçi alim Silvano Vinçeti ərazinin dron vasitəsilə hazırkı mənzərəsini rəsm əsəri ilə müqayisə edib. S.Vinceti körpünün Toskanada olduğunu iddia edib.

Tarixçi "Ansa" jurnalına müsahibəsində bildirib: "Bu, Arezzo əyalətindəki Laterinada yerləşən Ponte di Valle kimi tanınan "Romito Etrusk-Roma" körpüsüdür. Bu gün körpünün yalnız bir tağı qalıb, lakin 1501-ci ildən 1503-cü ilə qədər olan dövrdə körpü Florensiya əyalətindəki Medici ailəsinin mülklərinə aid idi. Bunu arxiv sənədləri sübut edir".

Alim körpünü Mona Lizanın şərəfinə adlandırmağı təklif edib.

***Səadət RZAYEVA,***
***"Xalq qəzeti"***

*İdman xəbərləri*

## Paralimpiyaçıların "Paris-2024" hazırlığı

**Tokio Olimpiadasında böyük uğurla iştirak edən Azərbaycan komandası "Paris-2024"də də Azərbayvcanı layiqincə təmsil etmək gücündədir. Bu günlərdə Hannoverdə keçirilən beynəlxalq turnirdə paralimpiya komandamızın əla çıxışı dediklərimizin bariz nümunəsidir.**




Komandanın baş məşqçisi Əfqan Əhmədov "Xalq qəzeti"nə açıqlamasında yığmamızın Hannoverdəki yarışda göstərdikləri nəticənin Paris Paralimpiadasına iştirak üçün geniş imkanlar yaratdığını bildirdi: "Hannoverdə keçirilən beynəlxalq turnirdə 20-dən çox ölkə iştirak edirdi. Bu turnirə qədər millimizin üzvü Yelena Taranovanın 25, Rafiq Əliyevin 10 metr məsafə üzrə yarışlara dünya çempionatı üçün lisenziyası yox idi. Y.Taranova dünya, R.Əliyev Avropa və dünya çempionatlarına lisenziya qazandılar.

Kamran Zeynalov 50 metr məsafə üzrə gümüş medal qazandı. Komanda hesabında isə 3-cü olduq. Mix yarışında Kamran Zeynalov və Yelena Taranova pnevmatik tapançadan 10 metrəyə atışda (P6) gümüş medala sahib çıxdılar. Şəxsi yarışlarda Aybəniz Babayeva pnevmatik tapançadan 10 metrəyə atışda (P2) ikinci yeri tutdu. Heyətində Kamran Zeynalov, Rafiq Əliyev və Rəşad İmaməliyevin yer aldığı kişilərdən ibarət komandada pnevmatik tapançadan 10 metrəyə atışda (P1) ikinci nəticəni göstərdi".

Baş məşqçi yarışın çox ağır keçdiyini vurğuladı: "Əslində, yarış bir gündən bir olmalı idi. Amma demək olar ki, olimpiyaçıların proqramına uyğun keçirildi. İdmançılarımızın əzmkarlığı nəticəsində bütün çətinlikləri geridə qoyduq. Məhz bunun nəticəsində həm dünya, həm Avropa çempionatında tam heyətlə iştirak edəcəyik. Yəni bütün məsafə üzrə keçirilən yarışlarda iştirak edəcəyik".

Əfqan Əhmədov paralimpiya komandasının əsas hədəfini açıqladı: "Qarşıda bizi Avropa və dünya çempionatı gözləyir. Yığmamız yaxşı formadadır. Dünya və Avropa çempionatı Paris Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya verir. Əsas məqsəd "Paris-2024"ə maksimum lisenziya qazanmaqdır.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

## "Ağ ev"də texnoloji sammit

**Süni intellektin müsbət imkanlarına baxmayaraq, təhlükələri də narahatlıq doğurur. Yeni nəsil texnologiyaların təhlükəsiz istifadəsini təmin etmək üçün "Ağ ev"də texnoloji sammit keçirilib. ABŞ-ın vitse-prezidenti Kamala Harris texnologiya nəhəngləri ilə görüşüb. Bu barədə "bbc.com" saytı məlumat yayıb.**



"Google", "Microsoft" və "OpenAI" kimi aparıcı texnologiya şirkətlərinin baş direktorlarının iştirak etdiyi sammitdə süni intellektin nəzarətsiz inkişafının fırıldaqçılıq riskini artırdığı qeyd olunub. Nəticədə isə məlumatların məxfiliyinin pozulmasına gətirib çıxarılması vurğulanıb.

İclasda iştirak edən ABŞ Prezidenti Co Bayden texnologiya nəhənglərindən "xalqı qorumaq" üçün ciddi addımlar atmalarını istəyib. ABŞ administrasiyası süni intellektin risklərini azaltmaq üçün mühüm addımlar atılacağını bildirib. Bu sahədə fəaliyyət göstərən yeni sahibkarlara 140 milyon dollar veriləcəyi açıqlanıb.

***Əfsanə ƏHƏDLİ,***
***"Xalq qəzeti"***

## "Xətai-Rabitə-Tikinti" ASC səhmdarlarının nəzərinə!

"Xətai-Rabitə-Tikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 20 iyun 2023-cü il saat 14.00-da, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binada keçiriləcəkdir:

**İclasın gündəliyi:**

**1.** "Xətai-Rabitə-Tikinti" Açıq Səhmdar Cəmiyyətinin icra orqanının dəyişdirilməsi.

**2.** "Xətai-Rabitə-Tikinti" Açıq Səhmdar Cəmiyyətinin 2022-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.

**3.** Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00.-dan 18.00-dək səhmdar cəmiyyətin Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin idarə heyətinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan – Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi 13X.

***Müşahidə şurası***

## Çexiya Bakıda beynəlxalq minifutbol turnirinin qalibi olub



**Bakıda ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq minifutbol turniri başa çatıb.**

Azərbaycan millisi üçüncü yer uğrunda oyunda Qazaxıstan kollektivi ilə üz-üzə gəlib. Gərgin idman mübarizəsi şəraitində keçən matç 2:2 hesablı heç-heçə ilə yekunlaşıb. Qalib penalti seriyasında müəyyənləşib. Zərbələri daha dəqiq yerinə yetirən Qazaxıstan millisi qələbə qazanıb – 4:3.

Yarışın qalibi finalda Serbiya yığmasını 4:3 hesabı ilə məğlub edən Çexiya komandası olub.

*Sosial şəbəkələrdən seçmələr*

## Ümid şamınız sönməsin!

**Dünən istedadlı yazıçı-publisist Elçin Nəsibin sülh, səmimiyyət, sevgi və ümid adlı 4 şamın taleyi ilə bağlı təqdim etdiyi ibrətamiz hekayət diqqətimi cəlb etdi. Orada yazılır:**



4 Şam səssizcə yanırdı. Otaqda elə bir sakitlik hökm sürürdü ki, şamların pıçıltı səsləri aydın eşidilirdi. Qapının arxasında dayanmış uşaq səssizcə dayanaraq onların söhbətlərini dinləyirdi.

**Birinci şam:** "Mən sülhəm. Ancaq heç kim mənim yanmağıma kömək etmək istəmir. Ətarfıma işıq saçmağa çalışsam da, bilirəm ki, sönəcəyəm", - dedi və səssizcə söndü.

**İkinci şam:** "Mən səmimiyyətəm. Deyəsən, mənə heç kimin ehtiyacı yoxdur. Artıq yanmağımın da bir mənası qalmayıb", - dedi və sönərək qaranlığa qərq oldu.

**Üçüncü şam isə:** "Mən sevgiyəm. Ancaq ətrafıma işıq saçmaq üçün gücüm çatmır. İnsanlar məni özlərindən uzaqlaşdırmağa çalışırlar. İndi onlar öz yaxınlarını da sevmirlər", - deyərək bir göz qırpımında sönüb getdi.

Pıçıltıların kəsildiyini görən uşaq içəri girdi. Sönmüş şamlara baxaraq hönkür-hönkür ağlamağa başladı.

**Dördüncü şam yumşaq bir səslə uşağa təskinlik verərək dedi:**

– Qorxma, nə qədər ki, mən yanıram, heç bir şam sönə bilməz. Çünki mən ümidəm.

Gözləri parıldayan uşaq ümid şamını götürərək o biri şamları yandırdı...

Heç vaxt ümid şamınız sönməsin!

***Təqdim etdi:***
***M.HACIXANLI, "Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

## Oynaq ağrılarından əziyyət çəkirsinizsə...

**İnsanların əksəriyyəti yaşlananda oynaq ağrılarından əziyyət çəkir. Bəzən gənclər arasında da rast gəlinən müxtəlif oynaq xəstəliklərinə vaxtında diqqət edilməyəndə və ya lazımi müalicə tətbiq olunmayanda, şiddətli ağrılar baş qaldırır. Xəstəliyin kəskinləşməsinə səbəb oynaqda əmələ gələn iltihab olur. Mütəxəssislərin fikrincə, yüksək dərəcədə emal edilmiş qidalar və qırmızı ətdən bir qədər çəkinmək lazımdır. Çünki, bu qidalar iltihab yaranmasına səbəb ola bilər.**



Oynaq xəstəliklərinin daha çox rast gəlinən növü artrit və onun növləridir. Artritin növündən asılı olaraq, xəstəlik oynaqlarda ağrı, şişginlik, sərtlik və hərəkət problemlərinə səbəb olur. Mütəxəssislərin fikrincə, artrit ağrısını yalnız dərman preparatları ilə deyil, qəbul etdiyimiz qidalarla da azaltmaq olar.

**Ağrıları aradan qaldıran qidalar aşagıdakılardır:**

Bütün növ taxıl qidaları. – Səhər yeməyində taxıl qidaları ilə yanaşı, yulaf əzməsi və qəhvəyi düyüdən də istifadə etmək olar.

**Giləmeyvələr:** - Əsasən çiyələk və moruğu qatıqla qarışdırıb, desert kimi yeyin. Çiyələk əvəzinə qaragilə və böyürtkəndən də istifadə etmək olar.

Sarımsaq, yağlı balıq, sarıkök, yaşıl tərvəzdən istifadə etməklə də artrit ağrılarını azaltmaq olar.

***Z.HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ *Mayın 7-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək. Gecə 10-15°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 22-27° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 9-14°, bəzi yerlərdə 16-18° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 9-14°, bəzi yerlərdə 18-20° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 19-24° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 9-14°, gündüz 18-23°, dağlarda gecə 3-8°, gündüz 11-16° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 21-26° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 9-14°, gündüz 19-24°, dağlarda gecə 9-12°, gündüz 14-18° isti olacaq.




## İstanbulda qəhvə sərgisi

**Dünən İstanbulda qəhvə sərgisi açılıb. Haliç Konqres Mərkəzinə toplaşan həvəskarlar çeşidli qəhvələrdən dadmaq imkanı əldə ediblər. Burada 80-ə yaxın brend təmsil olunur.**

Milli və beynəlxalq markaları bir araya gətirən sərgidə hər il 20 minə yaxın iştirakçının iştirak etdiyini deyən təşkilatçı-koordinator Reha Kadak tədbirin, sadəcə, qəhvə istifadəçilərini maraqlandırmadığını, həm də bu sahədə fəaliyyət göstərən iş adamlarının diqqətini cəlb etdiyini deyib.

"Coffex İstanbul Sərgisi" Türkiyədə Qəhvə sənayesi və bu sənayeni dəstəkləyən paydaş məhsulları haqqında yeganə və ən əhəmiyyətli sərgidir.

Qeyd edək ki, bu gün işini başa çatdıran sərgi hər il fərqli bir məkanda təşkil edilir. Sərgiyə indiyə qədər İstanbuldakı bir çox tarixi məkanlar evsahibliyi edib.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5048
SİFARİŞ 1078
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00